



# VƏTƏNDAŞIN BÜDCƏ BƏLƏDÇİSİ 2024





# 2024-cü il

## Azərbaycan Respublikasında
## “Yaşıl dünya naminə həmrəylik ili”dir

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri **“Təmiz ətraf mühit və yaşıl artım ölkəsi”** kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.



# VƏTƏNDAŞIN BÜDCƏ BƏLƏDÇİSİ



2024

# Hər birimizin büdcəsi

Hər bir ailənin yaxşı yaşayışı və rifahı ailə büdcəsinin düzgün idarə edilməsi ilə birbaşa bağlıdır. Dövlət büdcəsində də eyni prinsipdir. Büdcənin gəlir mənbələri müxtəlif və dayanıqlı, xərc istiqamətləri isə prioritet və səmərəli olmalıdır. Dövlət büdcə vəsaitləri ilə biznesin inkişafına, əhalinin sosial rifahının yaxşılaşdırılmasına, iş yerlərinin açılmasına, zəruri infrastrukturların qurulmasına, ölkənin təhlükəsizliyinin təmin edilməsinə dəstək verir. Vətəndaşlarımız da gəlirlərinin bir hissəsini büdcəyə ödəməklə ölkənin inkşafına öz töhfələrini verirlər.

Dövlət büdcəsindən hamı yararlanır: dövlət və bələdiyyə işçiləri, həkim və pasiyentlər, müəllim və şagirdlər, valideyn və övladlar, pensiyaçılar və təqaüdçülər, aztəminatlı ailələr və işsizlər, eləcə də sahibkarlar... Onlar həm də büdcə gəlirlərinin formalaşmasında iştirak edirlər. Ona görə də hər kəs dövlət büdcəsinə ödədiyi pulun necə xərclənməsi barədə məlumat almaq istəyir.

Hər bir vətəndaşın tanış olması üçün büdcə məlumatlarını dövri olaraq Maliyyə Nazirliyinin internet saytında yerləşdiririk. Ancaq büdcə zərfi böyük və tutumlu sənədlər toplusudur, yüzlərlə səhifəlik materiallardan və rəqəmlərdən ibarətdir. Bu sənədləri öyrənmək sadə vətəndaşdan çoxlu vaxt və xüsusi peşəkarlıq tələb edir. Onlar bir qayda olaraq sadə vətəndaş üçün yorucu və çətin anlaşılan olur. Bütün bunları nəzərə alaraq "Vətəndaşın Büdcə Bələdçisi" ilə növbəti dəfə Sizin görüşünüzə gəlmişik. Hər il dərc etdiyimiz və artıq ənənə halını almış "Vətəndaşın Büdcə Bələdçisi" vasitəsilə büdcənin daha asan və aydın başa düşülməsinə çalışırıq.

Sizin ixtiyarınıza verilən "Vətəndaşın Büdcə Bələdçisi"ndə 2024-cü ildə hökumətin həyata keçirəcəyi sosial-iqtisadi layihələr barədə ətraflı məlumat əldə edəcəksiniz. Hazırda azad edilmiş ərazilərimizdə aparılan quruculuq işlərinin maliyyələşdirilməsi hökumətin qarşısında dayanan əsas vəzifələrdəndir. Qarabağda və Şərqi-Zəngəzurda artıq 3 ildir ki, infrastrukturun qurulması üçün həyata keçirilən nəhəng tikinti işləri, kommunikasiya xətlərinin çəkilişi, yaşayış məntəqələrinin salınması, səhiyyə və təhsil ocaqlarının inşası, iş yerləri üçün yeni müəssisələrin yaradılması bu ərazilərə qayıdacaq insanların firavanlığına hədəflənib və bütün bunlar üçün davamlı vəsaitlər tələb olunur. Bu baxımdan növbəti ildə də Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində icra olunan layihələrin maliyyələşdirilməsi büdcənin əsas prioritet xərclərindən birini təşkil edəcəkdir.

Büdcədə digər vacib xərc bölməsi müdafiə və təhülkəsizlik sahəsidir. Ölkəmizin və vətəndaşlarımızın təhlükəsizliyini qoruyan igid ordumuzun, polis orqanlarının və sərhəd qoşunlarının layiqli maliyyə təminatı, habelə müdafiə tədbirləri üçün yeni texnika və avadanlıqların təmin edilməsi də 2024-cü ilin büdcəsində mühüm xərc istiqamətlərindən birini təşkil edir.

Hökumət eyni zamanda, vətəndaşlarının daha yaxşı və layiqli yaşaması üçün müntəzəm olaraq addımlar atır, büdcə imkanlarından istifadə etməklə əhalinin etibarlı sosial müdafiəsinin gücləndirilməsinə, müavinət və təqaüdlərin, pensiyaların, maaşların artırılmasına və əhatə dairəsinin genişləndirilməsinə önəm verir. Bu baxımdan 2024-cü ildə də pensiyaların, təqaüdlərin, ünvanlı yardımların artırılması üçün büdcədə müvafiq vəsait nəzərdə tutulub.

Digər mühüm sahə - təhsil ölkəmizin inkişafında müstəsna yerə malikdir, təhsilə yatırılan sərmayələr gələcək tərəqqini təmin edən əsas vasitələrdən biridir. 2024-cü ilin büdcə sənədində də təhsil xərcləri prioritet sahələrdən biri olaraq qalacaq. Bir sözlə, 2024-cü ilin dövlət büdcəsi ölkəmizin inkişafına, hər bir vətəndaşımızın rifahının yüksəldilməsinə xidmət edir.

Bizim vəzifəmiz bu məlumatları Sizə sadə və anlaşıqlı şəkildə çatdırmaqdır. Çünki büdcə hamımızın və hər birimizindir...

Maliyyə Nazirliyi

# ÖLKƏMİZİN BÜDCƏ SİSTEMİ



# BÜDCƏ NECƏ VƏ NƏ VAXT TƏRTİB OLUNUR?

## Yanvar

Nazirlər Kabinetinin qərarı ilə növbəti il və sonrakı üç il üçün dövlət büdcəsinin layihəsinin tərtibi prosesinə başlanılır. (Bu prosesdə aidiyyəti orqanlara - Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Statistika Komitəsi, rayon və şəhər icra hakimiyyəti orqanlarına və digər dövlət orqanlarına müvafiq tapşırıqlar verilir.)

## Aprel

İqtisadiyyat Nazirliyi ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqnozlarını hazırlayır. Maliyyə Nazirliyi dövlət və icmal büdcələrin ilkin ortamüddətli proqnozunu tərtib edir. Hazırlanmış sənədlər Maliyyə və İqtisadiyyat nazirlikləri tərəfindən Nazirlər Kabinetinə təqdim edilir.

## May

Maliyyə Nazirliyi büdcə layihəsini və sonrakı üç il üçün icmal büdcə göstəricilərinin tərtibinə dair təlimat məktubunu may ayının 1-nə kimi büdcənin tərtibi prosesində iştirak edən təşkilatlara göndərir.

## İyun-İyul

İqtisadiyyat Nazirliyi tərəfindən həmin ilin altı ayının faktiki nəticələri nəzərə alınmaqla növbəti il üzrə və ortamüddətli makroiqtisadi göstəricilər, habelə sosial, iqtisadi və investisiya proqramları dəqiqləşdirilir. Maliyyə Nazirliyi isə dəqiqləşdirilmiş proqnoz və hazırlanmış proqramlara əsasən dövlət büdcəsinin layihəsində gəlirləri və xərcləri yenidən hesablayır. Dövlət büdcəsinin gəlirlərini təmin edən orqanlar və büdcədən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar təlimat məktubuna uyğun olaraq hazırlanmış büdcə layihəsini Maliyyə Nazirliyinə təqdim edirlər.

## Sentyabr

Dəqiqləşdirilmiş göstəricilər dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlarla razılaşdırılır və müvafiq qaydada rəsmiləşdirilir. Maliyyə Nazirliyi dövlət büdcəsinin və icmal büdcənin layihəsini və sonrakı üç il üçün icmal büdcənin göstəricilərini Nazirlər Kabinetinə və Hesablama Palatasına təqdim edir. Nazirlər Kabineti büdcə sənədlərini Prezidentə təqdim edir.

## Oktyabr

Büdcə layihəsi oktyabr ayının 15-dən gec olmayaraq Prezident tərəfindən Milli Məclisin müzakirəsinə təqdim edilir.

## Noyabr-Dekabr

Dövlət büdcəsinin və icmal büdcənin layihələri parlamentin komitələrində və plenar iclaslarda müzakirə edilərək qəbul olunur.

## Dekabr

Büdcə layihəsi haqqında qanun dövlət başçısı tərəfindən imzalanaraq qüvvəyə minir.



# DÖVLƏT BÜDCƏSİNİN STRUKTURU

Azərbaycanda büdcə prosesi ölkə Konstitusiyası, "Büdcə sistemi haqqında" Qanun, "Vergi Məcəlləsi", "Gömrük Məcəlləsi", "Dövlət büdcəsinin tərtibi və icrası qaydaları","Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası", "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası" və digər normativ-hüquqi aktlar vasitəsi ilə tənzimlənir və həmin sənədlərə uyğun olaraq həyata keçirilir.





# Büdcənin gəlirləri necə formalaşır?

Dövlət öz gəlirlərini və xərclərini tarazlaşdırmaq yolu ilə büdcəsini formalaşdırır. Əgər gəlirlər qarşıya qoyulmuş məsələlərin maliyyə təminatına imkan verirsə, onu təsdiq edir. Yox, əgər xərclər gəlirləri üstələyərsə, onda bir sıra xərcləri ixtisar etməyə, hətta xərclərin müəyyən hissəsini növbəti illərə keçirməyə, bu da bəs etmədikdə xərclərin-gəlirlə örtülməyən hissəsinin, yəni kəsirin bağlanması üçün maliyyəşdirmə mənbələri axtarmağa məcbur olur.



## Büdcə gəlirlərinin formalaşma mənbələri

Dövlət büdcəsinin gəlirləri bir neçə mənbədən formalaşır. Bura vergilər, rüsumlar və sair gəlirlər aiddir



### VERGİLƏR

Fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi, daxildə və idxalda əlavə dəyər, aksiz və yol vergiləri, torpaq və əmlak vergiləri, mədən vergisi daxildir.



### RÜSUMLAR

Gömrük və dövlət rüsumları daxildir.



### SAİR GƏLİRLƏR

Dövlət mülkiyyətində olan əmlakın icarəyə verilməsindən, büdcə təşkilatlarının ödənişli xidmətlərindən, səhmlərində dövlət payı olan müəssisələrdən alınan dividentlər, cərimələr, büdcədən verilmiş kreditlər üzrə daxilolmalar və digərləri aiddir.



### BÜDCƏLƏRARASI TRANSFERTLƏR

Dövlət büdcəsindən Naxçıvan MR-nin büdcəsinə, yerli büdcələrə, büdcədənkənar dövlət fondlarına, məqsədli büdcə fondlarına, büdcədənkənar dövlət fondlarından və məqsədli büdcə fondlarından dövlət büdcəsinə və yerli büdcələrə əvəzsiz verilən maliyyə vəsaitidir.



# BÜDCƏ XƏRCLƏRİ




Büdcə xərcləri məqsədindən asılı olaraq **funksional, iqtisadi** və **inzibati** prinsiplər əsasında qruplaşdırılır. Bu qruplaşma **büdcə təsnifatı** adlanır. Misal üçün, funksional təsnifat üzrə büdcə xərcləri aşağıdakı kimi qruplaşdırılır:

## FUNKSİONAL BÖLGÜ

1. Ümumi dövlət xidmətləri
2. Müdafiə və milli təhlükəsizlik
3. Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq
4. Təhsil
5. Səhiyyə
6. Sosial müdafiə və sosial təminat
7. Mədəniyyət, incəsənət informasiya, bədən tərbiyəsi, gənclər siyasəti
8. Müdafiə və milli təhlükəsizlik
9. Kənd təsərrüfatı
10. Ətraf mühitin mühafizəsi
11. İqtisadi fəaliyyət
12. Əsas bölmələrə aid edilməyən xidmətlər

# BÜDCƏ XƏRCLƏRİ








# BÜDCƏ XƏRCLƏRİ
## İNZİBATİ BÖLGÜ

1. Qanunvericilik orqanları
2. Yuxarı icra hakimiyyəti orqanları
3. Nazirliklər
4. Xaricdəki diplomatik nümayəndəliklər və konsulluqlar
5. Dövlət komitələri
6. Digər hüquqi şəxslər
7. Xidmətlər
8. Fondlar
9. Səhmdar Cəmiyyətləri
10. Məhkəmə və hüquq mühafizə orqanları
11. Nəqliyyat təşkilatları
12. İdarələr
13. Komissiyalar
14. Agentliklər
15. Mərkəz və şuralar
16. Palatalar
17. Elm və ali təhsil müəssisələri
18. İctimai təşkilatlar, istehsalat birlikləri

# BÜDCƏNİN GƏLİR VƏ XƏRCLƏRİ ARASINDAKI FƏRQ

## BALANSLI BÜDCƏ

Büdcənin gəlirləri onun xərcləri ilə eyni olduqda– **balanslaşdırılmış büdcə adlanır.**



## BÜDCƏ ARTIQLIĞI

Büdcənin gəlirləri onun xərclərini üstələdikdə – **büdcə artıqlığı və ya büdcə profisiti adlanır.**



## BÜDCƏ KƏSİRİ

Büdcənin gəlirləri onun xərclərindən az olduqda – **büdcə kəsiri və ya büdcə defisiti adlanır.**








# YOLA SALDIĞIMIZ İLƏ QISA BAXIŞ...

2023-ci il bütövlükdə ölkəmiz üçün uğurlu və əlamətdar il kimi yadda qalacaqdır. İlin əvvəlində qarşıya qoyulmuş bütün vəzifələr icra edilib, ölkənin bütün əraziləri üzərində dövlət suverenliyi tam bərqərar olunub və dayanıqlı inkişaf təmin edilib, beynəlxalq mövqelərimiz daha da möhkəmlənib.

2023-cü ilin yanvar-sentyabr aylarında ölkədə **90 milyard 812,5 milyon manatlıq** ümumi daxili məhsul istehsal olunub, qeyri neft-qaz sektorunda artım dinamikası 3 faiz təşkil edib, qeyri neft-qaz sektorunun ÜDM-dəki payı davamlı şəkildə artaraq 60%-i ötüb. Bu, ölkədə iqtisadi inkişafın əsas ağırlıq mərkəzinin neft sektorundan qeyri-neft sektoruna transformasiya olunduğunu və gələcək artım drayverlərinin neftdənkənar sahələrin üzərində cəmləşdiyini təsdiqləyir.

Azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı quruculuq işlərinin sürətli icrası 2023-cü ildə bir sıra əlavə yeni reallıqlar yaratdı. Xüsusən də “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”-nın icrasından meydana çıxan təxirəsalınmaz tələblər bu istiqamətdə əlavə maliyyə resurslarına ehtiyaclar yaratdı.

2023-cü ilin ilk 5 ayında dövlət büdcəsində toplanmış yığım mənbələrinin proqnozdan artıq icra edilməsi qeyd etdiyimiz hədəflərin reallaşdırılması üçün büdcədə dürüstləşmələrin aparılmasını zəruri etdi. 2023-cü ilin iyun ayında dövlət büdcəsinə edilmiş dəyişikliklərdən sonra dövlət büdcəsinin xərcləri **3 milyard manat** artırılaraq **36 milyard manata** çatdırıldı, həmin məbləğin təqribən **1,8 milyard manatı** isə Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işlərinin daha da sürətləndirilməsinə yönəldildi.

Həmçinin, Silahlı Qüvvələrimizin müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi, əlavə hərbi avadanlıqların və ehtiyatların alınması, sərhədlərin möhkəmləndirilməsi və yeni hərbi strukturların yaradılması, daxili və xarici təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və digər tələbatlar büdcə xərclərindəki artımın 1,1 milyard manatının hərbi sahənin maliyyə təminatına istiqamətlənməsinə səbəb oldu. Ümumilikdə, tarixi qələbədən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonundakı bərpa-quruculuq işlərinə dövlət büdcəsindən **11,2 milyard manatdan** çox vəsait ayrılıb.

2023-cü ildə azad edilmiş rayon və şəhərlərdə bir sıra iri obyekt və infrastrukturlar istifadəyə verilib. Artıq Laçın şəhərinə və rayonun Zabux kəndinə, Tərtər rayonunun Talış kəndinə, Füzuli şəhərinə doğma sakinlərin qovuşması, eləcə də Zəngilana 2022-ci ildə başlanmış geridönüşün növbəti mərhələsi baş tutub.

2023-cü ildə işğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın genişləndirilməsi və sürətləndirilməsi, investisiya və kapital qoyuluşu həcminin artırılması üçün vergi təşviqi alətlərindən istifadəyə mühüm yer verilib, vergi-gömrük azadolmaları, kommunal və sosial sığorta haqlarının subsidiyalaşdırılması və digər stimullaşdırıcı mexanizmlər tətbiq olunub. Eyni zamanda, sözügedən iqtisadi rayonların turizm və yaşıl enerji potensialının reallaşdırılması üçün ilk təməllər atılıb. Bu proqramlar qarşıdakı illərdə həmin ərazilərin sürətli inkişafına təkan verəcəkdir.

2023-cü ildə suverenliyimizin və ərazi bütövlüyümüzün ölkənin bütün ərazilərində bərpa olunması bölgədə quruculuq təşəbbüslərinin daha da böyüməsinə zərurətlər yaradıb. Regionda münaqişəyə son nöqtəni qoymuş Azərbaycan dövləti Qarabağda və Şərqi Zəngəzurda başladığı böyük quruculuq işlərinin Xankəndi, Ağdərə, Xocavənd, Xocalı, Əskəranda da həyata keçirilməsi və beləliklə bu ərazilərin də simasının dəyişməsi üçün mühüm tədbirlər planı hazırlamaqdadır.



**Ağdam şəhəri**
2023-cü il

# 2024-CÜ İLİN MAKROİQTİSADİ PROQNOZLARI NƏ VƏD EDİR?

İqtisadiyyatın diversifikasiyasının genişləndirilməsi növbəti illərdə də əsas strateji iqtisadi prioritetlərdən biri olacaq. İqtisadi artımın əsas hərəkətverici qüvvəsinin neft sektorundan qeyri-neft-qaz sektoruna transformasiya olunması sayəsində dövlət büdcəsində qeyri-neft gəlirlərinin payının davamlı artımına nail olunacağı gözlənilir.

2024-cü ildə ÜDM-in tərkibində qeyri-neft-qaz sektorunun payının 71,1 faizə, bərabər olacağı, neft-qaz sektorunun payının isə azalaraq 28,9 faizə düşəcəyi proqnozlaşdırılır. Gələn il neft-qaz sektoru üzrə ÜDM real ifadədə 1,7 faiz azalacaqdır

## ÜDM-də neft və qeyri-neft sektorunun payı

Makroiqtisadi proqnoz göstəricilərinə əsasən, 2024-cü ildə ölkədə ÜDM-in real artımı 2,4 faiz olmaqla 118.4 milyard manat olacaq. Qeyri-neft ÜDM-i 4.6 faiz artaraq 84,2 milyard manata çatacaq.




İqtisadiyyat Nazirliyi tərəfindən ortaillik inflyasiya 5,3 faiz səviyyəsində proqnozlaşdırılır. Makroiqtisadi sabitliyin qorunması məqsədilə milli valyutanın mübadilə məzənnəsinin sabit qalması (manatın ABŞ dollarına qarşı məzənnəsi 1,7 manat səviyyəsində) dəstəklənəcək.



2024-cü ildə əsas neft-qaz kontraktları çərçivəsində investisiya qoyuluşlarının azalma fazasında olması nəzərə alınmaqla, əsas kapitala investisiyalar üzrə 1 faiz artım olacağı, o cümlədən qeyri-neft (qaz) sektoru üzrə əsas kapitala investisiyaların 3 faiz artacağı proqnozlaşdırılır.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" çərçivəsində Azərbaycan iqtisadiyyatının inkişaf perspektivlərinin reallaşdırılması, işğaldan azad olunmuş regionların ölkə iqtisadiyyatına reinteqrasiyası və həmin regionların inkişafı ilə bağlı olan investisiya və yenidənqurma siyasəti çərçivəsində nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi iqtisadi göstəricilərin yaxşılaşmasına şərait yaradacaq.

Təcavüzə və işğala son qoyan Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafının ən vacib prioriteti kimi müəyyən etdiyi işğaldan azad edilmiş ərazilərimizdə quruculuq prosesinin davam etdirilməsi və Böyük Qaydışın daha da sürətləndirilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastrukturun yenidən qurulması ilə bölgənin ölkə iqtisadiyyatına reinteqrasiyası təmin olunacaq ki, bu da öz növbəsində iqtisadiyyatın bir çox sektorlarının inkişafı üçün yeni imkanlar yaradacaqdır. Həmçinin, qeyd edilən ərazilərdə uzun illər sonra kommunikasiya xətlərinin açılması iqtisadi cəhətdən müsbət tendensiyalara rəvac verməklə yanaşı, regionda sülhün və təhlükəsizliyin bərqərar olmasına xidmət edəcəkdir.



**Laçın rayonu, Zabux kəndi**
2023-cü il

# Dövlət büdcəsi üçün çağırışlar

2022-2025 və 2023-2026-cı illər üzrə hazırlanmış büdcə çərçivəsi sənədlərində büdcə siyasətinin formalaşdırılmasına təsir edən bir sıra çağırışlar əks olunub. COVID-19 pandemiyası və ərzaq böhranı istisna olmaqla, sözügedən çağırışlar növbəti 2024-2027-ci illəri əhatə edən ortamüddətli dövrdə də öz aktuallığını qoruyacaqdır.

## 2024-2027-ci illərdə əvvəlki dövr çağırışlarının aktuallığı

### 2022-2025-ci illər üzrə çağırışlar

- COVID-19 pandemiyası
- Neft gəlirlərinin azalması
- Qeyri-neft sektorundan əldə olunan gəlirlərin ümumi büdcə gəlirlərində payının artırılması
- Xərclərin artımının iqtisadi artım göstəriciləri və dayanıqlı gəlir mənbələri ilə uzlaşdırılması
- Pensiya sisteminin dayanıqlığı

### 2023-2026-cı illər üzrə çağırışlar

- Ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi
- Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər və 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, ölkə iqtisadiyyatına reinteqrasiyası və ərazilərə Böyük Qayıdışın təmin edilməsi
- Regional və qlobal geosiyasi gərginlik
- Qlobal miqyasda tənəzzül və böhran meylləri
- İnflyasiya təzyiqləri və ərzaq böhranı
- Əsas ticarət tərəfdaşı olan ölkələrdə milli valyutanın dəyərsizləşməsi

**Aktuallığını itirib**

**Aktualdır**

**Qismən aktualdır**

**Xüsusən aktualdır**

# 2024-CÜ İLİN İCMAL BÜDCƏSİ

**GƏLİRLƏR**

**38 milyard 997,5 milyon manat**
Bu, 2023-cü illə müqayisədə 4 milyard 62,6 milyon manat və ya 9,4 faiz azdır.

**XƏRCLƏR**

**42 milyard 376,2 milyon manat**
Bu, 2023-cü illə müqayisədə 1 milyard 106,3 milyon manat və ya 2,7 faiz çoxdur.

## DÖVLƏT BÜDCƏSİ

Dövlət büdcəsinin 2024-cü il üçün gəlirləri **34 milyard 173 milyon manat** nəzərdə tutulur.
*Bu, 2023-cü illə müqayisədə 282,5 milyon manat və ya 0,8 faiz çoxdur.*

Dövlət büdcəsinin 2024-cü il üçün xərcləri **36 milyard 763 milyon manat** təşkil edəcək.
*Bu, 2023-cü illə müqayisədə 138.2 milyon manat və ya 0.4 faiz çoxdur.*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BÜDCƏSİ

Naxçıvan MR-nin 2024-cü il üçün büdcəsinin gəlirləri **516,4 milyon manat** nəzərdə tutulur.
*Bu, 2023-cü illə müqayisədə 88,6 milyon manat və ya 14,7 faiz azdır.*

Naxçıvan MR-nin 2024-cü il üçün büdcəsinin xərcləri **516,4 milyon manat** təşkil edəcəkdir.
*Bu, 2023-cü illə müqayisədə 88,6 milyon manat və ya 14,7 faiz azdır.*

## DÖVLƏT NEFT FONDU

Dövlət Neft Fondunun 2024-cü il üçün büdcəsinin gəlirləri **12 milyard 73,3 milyon manat** nəzərdə tutulur.
*Bu, 2023-cü illə müqayisədə 4 milyard 264,2 milyon manat və ya 26,1 faiz azdır.*

Dövlət Neft Fondunun 2024-cü il üçün büdcəsinin xərcləri **12 milyard 862 milyon manat** təşkil edəcək.
*Bu, 2023-cü illə müqayisədə 1 milyard 49,1 milyon manat və ya 8,9 faiz çoxdur.*

## DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU

Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il üçün büdcəsinin gəlirləri və xərcləri bərabər olmaqla **6 milyard 919,9 milyon manat** nəzərdə tutulur. *Bu, 2023-cü illə müqayisədə 651,9 milyon manat və ya 10,4 faiz çoxdur.*

Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait **1 milyard 392 milyon manat** təşkil edəcək.
*Bu, 2023-ü ilin proqnozu ilə müqayisədə 75,8 milyon manat və ya 5,2 faiz azdır.*

## İCBARİ TİBBİ SIĞORTA FONDU

İcbari Tibbi Sığorta Fondunun 2024-cü il üçün büdcəsinin gəlir və xərcləri bərabər olmaqla **2 milyard 811,4 milyon manat** nəzərdə tutulur.

*Bu, 2023-cü illə müqayisədə 418,2 milyon manat və ya 17,5 faiz çoxdur.*

## İŞSİZLİKDƏN SIĞORTA FONDU

İşsizlikdən Sığorta Fondunun 2024-cü il üçün büdcəsinin gəlir və xərcləri bərabər olmaqla **238 milyon manat** nəzərdə tutulur.

*Bu, 2023-cü illə müqayisədə 20,3 milyon manat və ya 9,3 faiz çoxdur.*

## İCMAL BÜDCƏ

– "Büdcə sistemi haqqında" Qanuna əsasən, dövlət büdcəsinin, Naxçıvan MR-nin büdcəsinin və büdcədənkənar dövlət fondlarının gəlir və xərclərini funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində əks etdirir.

## İCMAL BÜDCƏNİN KƏSİRİ

2024-cü ilin icmal büdcəsinin kəsiri 3 milyard 378,7 milyon manat təşkil edəcəkdir ki, bu da proqnozlaşdırılan ÜDM-in 2,9 faizinə bərabər olacaqdır.

## 2024-cü il üzrə büdcə-vergi siyasətinin əsas istiqamətləri

Növbəti il üzrə vergi siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

**Sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılması.** Hədiyyələrin və təhsil haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin gəlir vergisindən azad olunan hissəsinin 1000 manatdan 2500 manata qaldırılması, fiziki şəxs olan istehlakçılar tərəfindən ödənilmiş ƏDV-nin qaytarılmasına (ƏDV cash-back) görə əldə olunan gəlirlərin gəlir vergisindən azad edilməsi;

**Sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi.** Maliyyə lizinqinin vergiyə cəlb edilməsi mexanizminin sadələşdirilməsi, vergi ödəyicisinin hesabat ilinin mənfəətinin elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara, ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən və vergidən azad olan hissəsinin 10 faizdən 15 faizə qaldırılması, kredit təşkilatlarının ödənilməyən borclar müqabilində balansa götürdüyü girov əmlakların əmlak və torpaq vergilərindən müddətli azad edilməsi, turizm subyektlərinə (mehmanxana, hotel və sanatoriya) əmlak vergisi üzrə vergi təşviqinin verilməsi;

**Vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi və vergitutma bazasının genişləndirilməsi.** Sərnişin və yükdaşıma fəaliyyəti üzrə vergitutma rejiminin tənzimlənməsi, tütün məmulatları üzrə aksiz vergisinin markaların (məcburi nişanlamanın) alınması zamanı əvvəlcədən ödənilməsi mexanizminin tətbiqi, tütün məmulatları və alkoqollu içkilər üzrə aksiz dərəcələrinin artırılması, vergi ödəyicisi dövlət reyestri aparılan daşınmaz və daşınar əmlakın siyahıya alınmaya təqdim etməkdən yayınarsa, həmin əmlakın reyestr məlumatlarına əsasən vergi ödəyicisinin və müşahidəçilərin iştirakı olmadan vergi orqanı tərəfindən siyahıya alınması;

**Vergi inzibatçılığının təkmilləşdirilməsi.** Vergi borclarının yığılmasının effektivliyinin artırılması məqsədilə vergi borclarının alınmasına möhlət verilməsi mexanizminin və torpaq vergisi ilə bağlı müddəaların təkmilləşdirilməsi, avans ödənişlərə görə elektron qaimə-fakturanın verilməsi və onun verilmə vaxtının müəyyən edilməsi;

**Vergi və gömrük sahəsində verilmiş güzəşt və azadolmaların təkmilləşdirilməsi.** Vergi və gömrük sahəsində normativ hüquqi aktlarda dəyişikliklərlə bağlı layihələr hazırlanıb. Layihələrdə 2023-cü ilin sonunda müddəti tamam olan güzəşt və azadolmaların müddətinin 3 il uzadılması təklif olunur. Növbəti mərhələdə güzəşt və azadolmaların büdcə, iqtisadi və sosial baxımdan səmərəliliyi qiymətləndirilməklə sonrakı illər üzrə hədəflərin, habelə nəticəyönümlü güzəşt və azadolmaların müəyyən edilməsi nəzərdə tutulur.

**Gömrük ödənişlərinin təkmilləşdirilməsi.** Daxili istehsalda istifadə olunan və yerli istehsalı mövcud və ya səmərəli olmayan bir sıra xammal və aralıq malların idxalına tətbiq olunan gömrük rüsumlarının 2024-cü il 1 yanvar tarixindən 7 il müddətinə “0” dərəcəyə endirilməsi, bir sıra əsas vəsaitlərin idxalında ƏDV-dən azad olunmanın tətbiq edilməsi.



# 2024-CÜ İLDƏ BÜDCƏ BİZƏ NƏ VERƏCƏK?

Əhalinin aztəminatlı təbəqəsinin ali təhsilə əlçatanlığını artırmaq və ali təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə təhsil tələbə kreditinin verilməsi üçün dövlət büdcəsindən **8 milyon manat** ayrılacaq. 2020-2023-cü illərdə ayrılmış vəsaitləri də nəzərə aldıqda, ümumilikdə Təhsil Tələbə Kredit Fondunun resurs zərfi 118 milyon manata çatacaq.

Vergi ödəyicisinin hesabat ilinin mənfəətinin elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara, ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən və vergidən azad olan hissəsi 10 faizdən 15 faizə qaldırılacaq, turizm subyektlərinə (mehmanxana, hotel və sanatoriya) əmlak vergisi üzrə vergi təşviqi veriləcək.

Dövlət sifarişi və dövlət hesabına kadr hazırlığı üzrə təhsilalanların sayının təqribən 10,7 min nəfər artaraq 137 min nəfərə, təqaüd alanların sayının isə 10,3 min nəfər artaraq 116,5 min nəfərə çatdırılması nəzərdə tutulub.

Keçmiş məcburi köçkün, valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş tələbələr, Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş, əlil olmuş şəxslərin övladları olan tələbələr, ölkənin ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər, orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər olmaqla ümumilikdə 19,2 min nəfər tələbənin təhsil və təqaüd xərclərinin maliyyələşdirilməsinə **37,9 milyon manat** xərclənəcək.

Hədiyyələrin və təhsil haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin gəlir vergisindən azad olunan hissəsi **1000 manatdan 2500 manata** qaldırılacaq, fiziki şəxs olan istehlakçılar tərəfindən ödənilmiş ƏDV-nin qaytarılmasına (ƏDV cash-back) görə əldə olunan gəlirlər gəlir vergisindən azad ediləcək.

İşğaldan azad edilmiş ərazilər üzrə vergi uçotuna alınan və həmin ərazilərdə fəaliyyət göstərən sahibkarların kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə ödəyəcəkləri vəsaitin 20 faizi 10 il müddətində dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılacaq və bu məqsədlə dövlət büdcəsindən **2 milyon manat** vəsait ayrılacaq.

94 min nəfər 5 yaşlı uşağın məktəbəhazırlıq təhsili ilə əhatə olunması məqsədilə dövlət ümumtəhsil məktəblərində məktəbəhazırlıq qruplarının fəaliyyətinin maliyyələşdirilməsinə **53,2 milyon manat** xərclənəcək.

Pedaqoji profilli ali və orta ixtisas təhsil müəssisələrini bitirmiş 18 min nəfərdən çox gənc mütəxəssisin kənd rayonlarındakı ümumtəhsil müəssisələrinə işə cəlb olunmalarının stimullaşdırılması məqsədilə onların yol xərci, əmlakın daşınması üçün nəqliyyat xərci və ilkin yaşayış şəraitinin yaradılması məqsədilə birdəfəlik xərcin, kommunal xidmətləri və yaşayış yerinin kirayə haqqı üzrə verilən kompensasiyanın və aylıq əmək haqqına əlavənin ödənilməsi üçün **11,1 milyon manat** ayrılacaq.

Mühəndislik və tibb ixtisasları üzrə olmaqla 240 nəfər tələbənin təhsil alacağı yeni yaradılacaq "Azərbaycan–Türkiyə birgə Universiteti"nin fəaliyyətinin təmin edilməsinə **10 milyon manat** yönəldiləcək.

Onkoloji xəstələrin sağlamlığının qorunması, dərman preparatlarına olan tələbatının ödənilməsi, müayinə, müalicə və reabilitasiyasının həyata keçirilməsi və bu sahənin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə Milli Onkologiya Mərkəzi və Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikasına **50,1 milyon manat** ayrılacaq.

Kirayəyə götürülmüş yaşayış sahəsinə görə yaşayış yeri olmayan hərbi qulluqçulara (ehtiyatda və istefada olan hərbi qulluqçular da nəzərə alınmaqla) ödənilən pul kompensasiyası üçün 2024-cü ilin dövlət büdcəsində 121,7 milyon manat, 20 il və daha çox xidmət etmiş işləyən və ehtiyatda olan hərbi qulluqçulara mənzillə təmin olunması və digər zəruri xərclərin maliyyə təminatı üçün **35 milyon manat** məbləğində vəsait nəzərdə tutulub.

İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən qeyri-dövlət sektoru üzrə neft-qaz sahələrində fəaliyyəti olmayan sığortaedənlər tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının 2023-2025-ci illərdə 100 faizi, 2026-2028-ci illərdə 80 faizi, 2029-2030-cu illərdə 60 faizi, 2031-2032-ci illərdə 40 faizi, muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən sığortaolunan tərəfindən isə ödənilmiş məcburi dövlət sosial sığorta haqqının 100 faizi dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılacaq. Bu məqsədlə dövlət büdcəsindən **5 milyon manat** vəsait ayrılacaq.

# DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİ

2024-cü il üçün dövlət büdcəsinin gəlirləri **34 milyard 173 milyon manat** proqnozlaşdırılır ki, bu da 2023-cü ilin proqnozu ilə müqayisədə **282,5 milyon manat** və yaxud 0,8 faiz çoxdur.

2024-cü ildə dövlət büdcəsi gəlirlərinin **13 milyard 865 milyon manatı** Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların, **12 milyard 781 milyon manatı** Dövlət Neft Fondundan transfertin, **5 milyard 900 milyon manatı** Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, **831 milyon manatı** büdcə təşkilatlarının büdcədənkənar daxilolmalarının, **796 milyon manatı** isə digər gəlirlərin payına düşür.




## Büdcə gəlirlərinin strukturu

2024-cü il üzrə proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin **17 milyard 164 milyon manatı** neft sektorunun, **17 milyard 9 milyon manatı** qeyri-neft sektorunun payına düşür.




2023-cü ilin proqnozu ilə müqayisədə neft sektorunun gəlirləri **775,7 milyon manat** və ya 4.3% az, qeyri-neft sektorunun gəlirləri **1 milyard 58,2 milyon manat** və ya 6.6% çoxdur.



# Neft sektoru üzrə dövlət büdcəsi gəlirlərinin tərkibi

Dövlət büdcəsinin neft sektoru üzrə gəlirləri Dövlət Neft Fondundan transfert, vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmalar və SOCAR-ın dividend ödənişləri hesabına formalaşır. Bu vəsaitin **12 milyard 781 milyon manatı** Dövlət Neft Fondundan transfertin, **3 milyard 975 milyon manatı** vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmaların, **408 milyon manatı** isə SOCAR-ın dividend ödənişlərinin payına düşür.




Vergi orqanlarının xətti ilə neft sektoru üzrə daxilolmaların **2 milyard manatı** SOCAR-ın vergi ödənişlərinin, **370 milyon manatı** neft-qaz sahəsində fəaliyyət göstərən Hasilatın Pay Bölgüsü sazişləri çərçivəsində Azəri-Çıraq-Günəşli (AÇG) layihəsi üzrə mənfəət vergisi, **1 milyard 605 milyon manatı** Şahdəniz yatağı layihəsi üzrə mənfəət vergisinin payına düşür.



## Qeyri-neft sektoru üzrə gəlirlərin bölgüsü

Qeyri-neft sektoru üzrə dövlət büdcəsi gəlirlərinin **9 milyard 890 milyon manatını** vergi orqanlarının xətti ilə daxilolmalar, **5 milyard 900 milyon manatını** gömrük orqanlarının xətti ilə daxilolmalar, **831 milyon manatını** büdcədən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən büdcədənkənar fondlara daxilolmalar, **388 milyon manatını** digər gəlirlər təşkil edir.




2024-cü ildə vergi və gömrük orqanlarının xətti ilə dövlət büdcəsinin qeyri-neft gəlirlərinin 88,2 faizini və ya **13 milyard 929 milyon manatını** vergi gəlirləri, 11,8 faizini və ya **1 milyard 861 milyon manatını** qeyri-vergi gəlirləri təşkil edir.

## Vergi orqanlarının xətti ilə daxilolmalar

Dövlət Vergi Xidmətinin xətti ilə 2024-cü il üzrə dövlət büdcəsinə proqnozlaşdırılan daxilolmaların 71,3 faizi və ya **9 milyard 890 milyon manatı** qeyri-neft sektorunun, 28,7 faizi və ya **3 milyard 975 milyon manatı** neft sektorunun payına düşür.



Dövlət Vergi Xidmətinin xətti ilə ayrı-ayrı gəlir növləri üzrə daxilolmalar aşağıdakı kimi gözlənilir.

- Fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmalar – **1 milyard 895 milyon manat;**
- Hüquqi şəxslərin mənfəət vergisi üzrə daxilolmalar – **5 milyard 675,6 milyon manat;**
- Əlavə dəyər vergisi (ƏDV) üzrə daxilolmalar – **3 milyard 376 milyon manat;**
- Sadələşdirilmiş vergi üzrə daxilolmalar - **333,3 milyon manat;**
- Aksizlər üzrə daxilolmalar – **1 milyard 358 milyon manat;**
- Hüquqi şəxslərin əmlak vergisi üzrə daxilolmalar - **336 milyon manat;**
- Mədən vergisi üzrə daxilolmalar - **158,3 milyon manat;**
- Hüquqi şəxslərin torpaq vergisi üzrə daxilolmalar - **47,4 milyon manat;**
- Dövlət rüsumu üzrə daxilolmalar - **354 milyon manat;**
- Yol vergisi üzrə daxilolmalar - **90,4 milyon manat;**
- Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiymət arasındakı fərqdən yığımlar - **209 milyon manat;**
- Digər daxilolmalar - **32 milyon manat**






# Gömrük orqanlarının xətti ilə daxilolmaların bölgüsü

Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar **5 milyard 900 milyon manat** nəzərdə tutulur ki, bu da 2023-cü ilin müvafiq göstəricisi ilə müqayisədə **172 milyon manat** və ya 3,0 faiz çoxdur. Komitənin xətti ilə dövlət büdcəsinə daxil olacaq gəlirlərin idxalda payı 21.5%-ə bərabər olacaq.
2024-cü ildə Dövlət Gömrük Komitəsinin xətti ilə ayrı-ayrı gəlir növləri üzrə daxilolmalar aşağıdakı kimi gözlənilir:




- İdxal olunan mallara əlavə dəyər vergisi üzrə daxilolmalar – **4 milyard 215 milyon manat;**
- İdxal olunan mallara aksizlər üzrə daxilolmalar - **173 milyon manat;**
- Gömrük rüsumları üzrə daxilolmalar – **1 milyard 475 milyon manat;**
- Yol vergisi üzrə daxilolmalar - **37 milyon manat**

# Büdcə təşkilatlarının ödənişli xidmətləri

Büdcə təşkilatlarının ödənişli xidmətlərindən dövlət büdcəsinə **831 milyon manat** vəsaitin daxil olacaq ki, bu da 2023-cü ilin proqnozu ilə müqayisədə **26 milyon manat** və ya 3 faiz azdır.

# Sair gəlirlər

2024-cü ilin dövlət büdcəsinin sair gəlirləri üzrə mənbələr aşağıdakı kimi nəzərdə tutulur:




- Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər üzrə daxilolmalar - **558,2 milyon manat;**
- İnzibati xətalar, gömrük cərimələrindən və yığımlarından dövlət büdcəsinə daxilolmalar - **107,3 milyon manat;**
- Büdcədən verilmiş kreditlər üzrə daxilolmalar - **44,7 milyon manat;**
- Dövlət mülkiyyətində olan əmlakın icarəyə verilməsindən icarə haqqı - **28 milyon manat;**
- Xarici dövlətlərə verilmiş kreditlər üzrə ödənişlər - **1,9 milyon manat**
- Digər daxilolmalar - **55.9 milyon manat**

# DÖVLƏT BÜDCƏSİNİN XƏRCLƏRİ

2024-cü il dövlət büdcəsinin xərcləri **36 milyard 763 milyon manat** nəzərdə tutulur ki, bu da 2023-cü illə müqayisədə **138,2 milyon manat** və ya 0,4 faiz çoxdur. Dövlət büdcəsi xərclərinin ÜDM-də xüsusi çəkisi 31,1 faiz olacaq.
Dövlət büdcəsinin xərcləri aşağıdakı 3 istiqamətdə qruplaşdırılıb:

**1. Cari xərclərin məbləği - 22 milyard 710.2 milyon manat**
Cari xərclər hər il təkrarlanan xərclərdir. Misal üçün: əmək haqqı xərcləri və əmək haqqının ödənilməsi ilə bağlı hesablanan ayırmalar, pensiya və başqa sosial müavinətlər və ödənişlər, təşkilatın fəaliyyətinin təmin edilməsi üçün kommunal xidmət xərclərinin ödənilməsi, malların satın alınması və digər xərclər.
**2. Əsaslı xərclər – 12 milyard 80.2 milyon manat:**
**3. Dövlət borcuna xidmətlə bağlı xərclər - 1 milyard 972,6 milyon manat**






2024-cü il üçün dövlət büdcəsinin sosialyönlü xərcləri **15 milyard 755,1 milyon manat** məbləğində proqnozlaşdırılıb. Bu, 2023-cü illə müqayisədə **1 milyard 16,7 milyon manat** və ya 6,9 faiz çoxdur. Sosialyönlü xərclərin dövlət büdcəsi xərclərində payı 42.9% olacaq.

**Sosialyönümlü xərclərə əməyin ödənişi, pensiya və müavinətlər, dərman, sarğı ləvazimatları və materiallarının, ərzaq məhsullarının alınması daxildir. Bu xərclərə həmçinin icbari tibbi sığorta üzrə xərclər, kommunal xərclər, 20 il və daha çox xidmət etmiş işləyən və ehtiyatda olan hərbi qulluqçuların mənzillə təmin olunması və onlara pul kompensasiyanın verilməsi ilə bağlı xərclər də daxildir.**



## Büdcə xərclərinin iqtisadi təsnifat üzrə bölgüsü

2024-cü il dövlət büdcəsinin xərcləri iqtisadi təsnifat üzrə aşağıdakı istiqamətləri əhatə edir:

- Əməyin ödənişi xərcləri – **9 milyard 8,6 milyon manat;**
- Malların (işlərin və xidmətlərin) satın alınması – **4 milyard 956,5 milyon manat;**
- Subsidiyaların ödənilməsi – **1 milyard 42,1 milyon manat;**
- Qrantlar və digər ödənişlər – **4 milyard 429 milyon manat;**
- Sosial ödənişlər – **3 milyard 275,5 milyon manat;**
- Qeyri-maliyyə aktivlərinin alınması – **11 milyard 989,6 milyon manat;**
- Maliyyə aktivləri üzrə əməliyyatlar - **90,6 milyon manat;**
- Öhdəliklər üzrə əməliyyatlar - **850 milyon manat;**
- Sair xərclər – **1 milyard 121,1 milyon manat**



# BÜDCƏ XƏRCLƏRİNİN FUNKSİYALAR ÜZRƏ ƏSAS İSTİQAMƏTLƏRİ

2024-cü ilin dövlət büdcəsində xərclərin prioritetliyinə önəm verilməklə yanaşı, əhalinin sosial müdafiəsi, təhsil və səhiyyə sahələrində islahatların davam etdirilməsi, ölkənin ərzaq təhlükəsizliyi, sahibkarlığa dəstək tədbirləri, səfərbərlik və fövqəladə ehtiyatların formalaşdırılması, dövlət investisiya proqramının maliyyələşdirilməsi üçün tələb olunan vəsaitlərin ayrılması da diqqətdə saxlanılıb.

2024-cü il dovlət büdcəsində elm, təhsil, səhiyyə, sosial mudafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri üçün **11 milyard 774,3 milyon manat** məbləğində vəsait nəzərdə tutulub. Bu, 2023-ci illə muqayisədə **470,1 milyon manat** və ya 4,2 faiz çoxdur. Qeyd edilən həmin sahələr üzrə xərclərin büdcədə çəkisi 32 faiz təşkil edir.






# TƏHSİL XƏRCLƏRİ

Təhsil sektoruna dövlət büdcəsindən **4 milyard 549,9 milyon manat** vəsait ayrılıb. Bu, 2023-cü illə müqayisədə **142,8 milyon manat** və ya 3,2 faiz çoxdur. Təhsil xərclərinin ÜDM-də payı 3,8 faiz, dövlət büdcəsi xərclərinin tərkibində payı isə 12,4 faiz təşkil edəcək.

Bu sahə üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:

- Ümumi təhsil xərcləri – **2 milyard 372 milyon manat;**
- Ali təhsil xərcləri - **134,8 milyon manat;**
- Məktəbəqədər təhsil xərcləri - **453 milyon manat;**
- Orta ixtisas təhsili xərcləri - **101,1 milyon manat;**
- Peşə təhsili xərcləri - **77,1 milyon manat;**
- Əlavə təhsil və tətbiqi tədqiqatlar - **28,3 milyon manat;**
- Təhsil sahəsində digər müəssisə və tədbirlərlə bağlı xərclər - **1 milyard 383,5 milyon manat**



# Təhsil xərclərinin tərkibində tədbir və proqramların maliyyələşməsi

Azərbaycan Respublikasında təhsil sisteminin daha da təkmilləşdirilməsini, inkişafını, müasir səviyyədə qurulmasını və iqtisadi inkişafın mühüm amilinə çevrilməsini, habelə biliklərə əsaslanan iqtisadiyyata keçidin yeni təhsil modelinə tələbatını təmin etmək məqsədilə “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda və “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda nəzərdə tutulmuş islahatların və tədbirlərin həyata keçirilməsi 2024-cü ildə də davam etdiriləcək və bu məqsədlə dövlət büdcəsində müvafiq məbləğdə vəsait proqnozlaşdırılıb. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın tədbirlər planında təhsil sahəsi üçün aşağıdakı fəaliyyət istiqamətləri müəyyən edilib:

- Erkən yaş dövründə səmərəli təhsil modelinə əsaslanan məktəbəqədər təhsilin əhatə dairəsinin artırılması;
- Ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi;
- Əmək bazarının tələblərinə cavab verən peşə təhsilinin təşkili və təlim-tədris prosesinin qurulması;
- Ali təhsildə əlçatanlığın və keyfiyyətin artırılması, beynəlxalq rəqabətliliyin təmin edilməsi;
- Elmi tədqiqatların və innovasiyaların inkişafının, elm və təhsilin inteqrasiyasının təmin edilməsi;
- Səriştələrin davamlı inkişafına əsaslanan “ömürboyu təhsil” sisteminin gücləndirilməsi;
- Erkən yaşlardan rəqəmsal səriştələrin artırılması, İnformasiya və Kommunikasiya Texnologiyalarının təhsildə tətbiqi və distant təhsil imkanlarının genişləndirilməsi;
- Dövlət qulluğunda və iqtisadi idarəetmədə effektivliyin artırılması;
- İnnovasiya ekosisteminin inkişafı.



Ümumilikdə 9 fəaliyyət istiqaməti üzrə 17 tədbirin 2024-cü ildə həyata keçirilməsinə **247,1 milyon manat** xərclənəcək. Bu vəsaitin 246,1 milyon manatı hazırda davam edən 16 tədbirin, **1 milyon manatı** isə yeni başlayacaq 1 tədbirin maliyyələşdirilməsinə yönəldiləcək.

Strategiyaya əsasən, məktəbəqədər təhsil sahəsində alternativ təhsil və maliyyələşmə modelləri (icma əsaslı məktəbəqədər təhsil, valideyn-dövlət-özəl əməkdaşlığı və s.) əsasında əhatəliliyin artırılması məqsədilə 12 milyon manat vəsait nəzərdə tutulub.

**"Dövlət ümumi təhsil müəssisələrinin rəhbər işçilərinin və həmin təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) təhsilverənlərinin vəzifə maaşlarına aylıq əlavələr müəyyən edilməsi haqqında"** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 avqust tarixli 1815 nömrəli Fərmanının icrası olaraq dövlət ümumi təhsil müəssisələrinin direktor, direktor müavinlərinin və sertifikatlaşdırılmadan keçən təhsilverənlərin aylıq vəzifə maaşlarına əlavələr müəyyən edilib. Bu məqsəd üçün 2022-2026-cı illər ərzində 137 min nəfər müəllim heyətinin sertifikatlaşma proqramında iştirakına və 68 min nəfər heyətin differensial əməkhaqqı sisteminə cəlb olunmasına təşəbbüs göstəriləcək. 2024-cü ilin dövlət büdcəsinin layihəsində **93,6 milyon manat** (müəllimlərin sertifikasiyası üçün 71 milyon manat, məktəb direktorları və müavinlərinin maaşlarına əlavələrin müəyyən edilməsi üçün 22,6 milyon manat) vəsait proqnozlaşdırılıb.

Növbəti ildə 6000 nəfər təhsilalanı əhatə edəcək uğurlu peşə təhsili müəssisələrinin mərhələli şəkildə adambaşı maliyyələşmə sisteminə keçirilməsi ilə bağlı xərclərin maliyyə təminatı üçün **17,5 milyon manat** vəsait ayrılacaq.

2024/2025-ci tədris ilindən başlayaraq "Heydər Əliyev adına Beynəlxalq Təhsil"; proqramı üzrə 100 təhsil qrantının ödənilməsi məqsədilə **0,6 milyon manat** vəsait nəzərdə tutulub.

2024-cü ildə dövlət sifarişi və dövlət hesabına kadr hazırlığı üzrə təhsilalanların sayının təqribən 10645 nəfər artaraq 136968 nəfər, təqaüd alanların sayının isə 10284 nəfər artaraq 116540 nəfər olacağı gözlənilir.



2024-cü ilin dövlət büdcəsində dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi və təhsil sahəsində digər tədbirlər üçün **468,8 milyon manat** vəsait proqnozlaşdırılıb ki, bu da 2023-cü illə müqayisədə **54,4 milyon manat** çoxdur. Həmin vəsaitin **289,5 milyon manatını** təhsil xərcləri, **170,3 milyon manatını** təqaüd xərcləri, **9 milyon manatını** isə təhsil sahəsində digər tədbirlər üzrə xərclər təşkil edəcək.

Dövlət sifarişi və dövlət hesabına kadr hazırlığının maliyyələşdirilməsi üçün növbəti ilə proqnozlaşdırılan vəsaitin **37,9 milyon manatı** güzəştli kateqoriyaya aid 19,2 min nəfər tələbənin müvafiq olaraq təhsil və təqaüd xərcləri üçün nəzərdə tutulub.

Əhalinin aztəminatlı təbəqəsinin ali təhsilə əlçatanlığını daha da artırmaq və ali təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə təhsil tələbə kreditinin verilməsinə **8 milyon manat** ayrılıb. Bununla da Təhsil Tələbə Kredit Fondunun resurs zərfi **118 milyon manata** yüksəlib.

**Qeyd: Güzəştli kateqoriyaya aid edilmiş şəxslər:**

-Keçmiş məcburi köçkün, valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş tələbələr;
-Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş, əlil olmuş şəxslərin övladları olan tələbələr;
-Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər;
-Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər.



Qeyd olunanlarla yanaşı, məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə alan 105 min nəfərdən çox uşağın sağlam qidalanmasının təmin edilməsi xərcləri **116,4 milyon manata** çatdırılıb.

Bir sıra ali təhsil müəssisələrin xərclərinin müəyyən hissəsinin qarşılanması üçün 2024-cü ilin dövlət büdcəsindən onlara **76,7 milyon manat** məbləğində maliyyə yardımı (subsidiya) nəzərdə tutulub.

Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsinin aparılması, orta ixtisas təhsil müəssisələrinə və ali təhsilin bakalavriat səviyyəsinə tələbə qəbulu ilə bağlı imtahanların keçirilməsi ilə bağlı xərclər **18,9 milyon manat** proqnozlaşdırılıb.

Mühəndislik və tibb ixtisasları üzrə olmaqla 240 nəfər tələbənin təhsil alması nəzərdə tutulan yeni yaradılacaq "Azərbaycan–Türkiyə birgə Universiteti"nin fəaliyyətinin təmin edilməsinə **10 milyon manat** ayrılacaq.

2024-cü ilin dövlət büdcəsinin təhsil xərcləri bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri **28,9 milyon manat** məbləğində müəyyən edilib.

# ELM XƏRCLƏRİ

2024-cü il dövlət büdcəsində elmin maliyyələşdirilməsi üçün **236,1 milyon manat** vəsait proqnozlaşdırılıb ki, bu da 2023-cü illə müqayisədə **10,7 milyon manat** və ya 4,8 faiz çoxdur. Elm xərclərinin 84,6 faizini fundamental elm, 15,4 faizini ümumdövlət xidmətləri üzrə tətbiqi tədqiqatlar ilə bağlı xərclər təşkil edir.

Elm xərclərinin xərc istiqamətləri aşağıdakı kimidir:



- Azərbaycan Milli Elmlər Akademiyası - **53,9 milyon manat;**
- Elm və Təhsil Nazirliyi - **86,7 milyon manat;**
- Kənd Təsərrüfatı Nazirliyi - **18,7 milyon manat;**
- Müdafiə Sənayesi Nazirliyi - **11,7 milyon manat;**
- Ədliyyə Nazirliyi - **9,2 milyon manat;**
- Mədəniyyət Nazirliyi - **6,6 milyon manat;**
- Milli Arxiv İdarəsi - **9,5 milyon manat;**
- "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi - **3 milyon manat;**
- Elm sahəsində digər müəssisə və tədbirlər - **36,8 milyon manat**

2024-cü ilin dövlət büdcəsində "Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı"nın maliyyə təminatı və Milli Arxiv İdarəsinə ümumdövlət xidmətləri üzrə tətbiqi tədqiqatlar ilə bağlı xərcləri üçün cəm olaraq **12 milyon manat** vəsait proqnozlaşdırılıb.




2024-cü ildə "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi üçün proqnozlaşdırılan vəsait hesabına Azərbaycan Milli Ensiklopediyasının növbəti cildlərinin nəşri ilə bağlı işləri həyata keçiriləcək.

Kənd Təsərrüfatı Nazirliyinin elmi tədqiqat və tədris müəssisələrinin təcrübə təsərrüfatlarında orijinal, superelit və elit toxumlarının istehsalı ilə bağlı **1,7 milyon manat** vəsait proqnozlaşdırılıb.

Elmin inkişafı, o cümlədən elmi tədqiqat proqramları və layihələrinin ünvanlı olaraq qrant şəklində maliyyələşdirilməsinin xüsusi əhəmiyyətini nəzərə alaraq, bu istiqamətdə dövlət sifarişinin həyata keçirilməsi məqsədi ilə "Azərbaycan Elm Fondu" publik hüquqi şəxsə **4,1 milyon manat** ayrılacaq.

2024-cü ilin dövlət büdcəsində elm xərcləri köməkçi bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri **4,3 milyon manat** təşkil edəcəkdir.

# SƏHİYYƏ XƏRCLƏRİ

2024-cü ilin dövlət büdcəsində səhiyyə xərcləri **1 milyard 871,3 milyon manat** nəzərdə tutulub ki, bu da 2023-cü illə müqayisədə **66,3 milyon manat** və ya 3,7 faiz çoxdur. Səhiyyə xərclərinin dövlət büdcəsi xərclərinin tərkibində payı 5,1 faiz, ÜDM-də payı isə 1,6 faiz təşkil edəcək.

Bu sahə üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:

- Əhalinin dövlət vəsaiti hesabına icbari tibbi sığortalanması və məqsədli dövlət proqram və tədbirlərinin maliyyələşdirilməsi üzrə xərclər – **1 milyard 376 milyon manat;**
- Poliklinika və ambulatoriyaların saxlanılması xərcləri - **2,2 milyon manat;**
- Xəstəxanaların saxlanılması xərcləri - **231,5 milyon manat;**
- Səhiyyə sahəsində tətbiqi tədqiqatlar xərcləri - **9,5 milyon manat;**
- Səhiyyə sahəsində digər xidmətlər - **252,1 milyon manat**




Səhiyyə xərclərindən hüquq mühafizə orqanlarına aid olan səhiyyə müəssisələrinə **58,8 milyon manat,** Səhiyyə Nazirliyinə, onun tabeliyindəki tibb müəssisələrinin saxlanılmasına, (Nazirliyə həvalə olunmuş dövlət proqram və tədbirlərinin icrasına ayrılacaq vəsaitlər istisna olmaqla) **236 milyon manat,** Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətinə **22,6 milyon manat,** "Azərbaycan Dəmir Yolları" QSC-nin həkim-sanitar xidmətinin xərclərinin bir hissəsinin maliyyələşdirilməsinə **10,5 milyon manat,** Bakı Sağlamlıq Mərkəzinin xərclərinin bir hissəsinin xərclərinin maliyyələşdirilməsinə 6 milyon manat vəsait yönəldiləcək.

2024-cü ilin icmal büdcəsində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə nəzərdə tutulmuş **2 milyard 811,4 milyon manat** vəsaitin **1 milyard 376 milyon manatını** dövlət büdcəsindən əhalinin icbari tibbi sığortalanması və məqsədli dövlət proqram və tədbirlərinin maliyyələşdirilməsi payına düşən öhdəliyi təşkil edir. Növbəti ildə adambaşına düşən icbari tibbi sığorta haqqı **122 manat 94 qəpik** götürülüb ki, bu da 2023-cü ilin sonuna gözlənilən 9,5 faizlik istehlak qiymətlərinin indeksinə uyğun artırılıb.



Səhiyyə Nazirliyinə ayrılan vəsaitin tərkibində sanitar-epidemioloji vəziyyətə nəzarətin təmin edilməsi, infeksiyaya yoluxmuş və onlarla təmasda olan şəxslərin monitorinqinin aparılması məqsədilə sanitar-epidemioloji tədbirlər üçün **50,1 milyon manat** vəsait proqnozlaşdırılıb.

Onkoloji xəstəliyə tutulmuş şəxslərin sağlamlığının qorunması, dərman preparatlarına olan tələbatın ödənilməsi, müayinə, müalicə və reabilitasiyasının həyata keçirilməsi və bu sahənin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə Milli Onkologiya Mərkəzinə və Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikasına **50,1 milyon manat** vəsait ayrılacaq.

Azərbaycan Respublikasında ixtisaslaşdırılmış oftalmoloji xidmətlə təmin edilmə, göz patologiyası ilə mübarizədə elmi-metodik cəhətdən əsaslandırılmış tədbirlərin işlənilməsi, tətbiqi və gücləndirilməsi, respublikada ixtisaslaşdırılmış oftalmoloji yardımın təşkili məqsədilə Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə **10,1 milyon manat** məbləğində vəsait ayrılacaq.

Növbəti ilin dövlət büdcəsindən Gənclər və İdman Nazirliyinin tabeliyində olan Bakı, Gəncə, Lənkəran, Sumqayıt, Şəki və Şirvan şəhər Tibbi bədən tərbiyəsi dispanserlərinin saxlanılmasına **1,4 milyon manat** vəsait nəzərdə tutulub.

2024-cü il üçün səhiyyə xərcləri bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri **15,3 milyon manat** təşkil edəcəkdir ki, bu da 2023-cü illə müqayisədə **2 milyon manat** çoxdur.

Növbəti ildə səhiyyə sahəsində mövcud olan dövlət proqramlarının və tədbirlərinin maliyyələşdirilməsi üçün **265,7 milyon manat** vəsait proqnozlaşdırılıb və bu, 2023-cü illə müqayisədə **18,3 milyon manat** çoxdur. Həmin vəsaitlər xəstələrin dərman preparatları, özünənəzarət vasitələri və digər ləvazimatla təminatının yaxşılaşdırılmasına, xəstəliklərə qarşı mübarizə tədbirlərinin daha da genişləndirilməsinə, xəstəliklərin profilaktikasına və müalicəsinə dair əhalinin maarifləndirilməsi tədbirlərinin maliyyə təminatı üçün nəzərdə tutulub.



# DÖVLƏT PROQRAMLARI VƏ TƏDBİRLƏRİ ÜZRƏ MALİYYƏLƏŞƏN XƏSTƏLİKLƏR

| | |
|---|---|
| Şəkərli diabet xəstəliyi üzrə tədbirlər | 58,3 milyon manat |
| Onkoloji xəstəliklərlə mübarizə tədbirləri | 47,2 milyon manat |
| Xroniki böyrək çatışmazlığı üzrə mübarizə tədbirləri | 45,0 milyon manat |
| Uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair tədbirlər proqramı | 24,2 milyon manat |
| Talassemiya ilə mübarizə tədbirləri | 21,0 milyon manat |
| Hemofiliya xəstəliyi üzrə mübarizə tədbirləri | 16,2 milyon manat |
| Qanın bədxassəli xəstəlikləri üzrə mübarizə tədbirləri | 13,0 milyon manat |
| İnsan İmmunçatışmazlığı Virusu/Qazanılmış İmmunçatışmazlığı Sindromu (İİV/QİÇS) ilə mübarizə tədbirləri | 6,2 milyon manat |
| Uşaqların icbari dispanserizasiyadan keçirilməsi tədbirləri | 5,0 milyon manat |
| İxtiyoz və bullyoz epidermoliz xəstəliyinə qarşı mübarizə tədbirləri | 5,0 milyon manat |
| Sümük iliyinin transplantasiyası əməlliyyatlarının icra edilməsi | 5,0 milyon manat |
| Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair tədbirlər | 4,5 milyon manat |
| Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirləri | 4,1 milyon manat |
| Ana və uşaqların sağlamlığının yaxşılaşdırılması tədbirləri | 3,3 milyon manat |
| Koxlear implantasiya əməliyyatları tədbirləri | 2,4 milyon manat |
| Vərəmlə mübarizə tədbirləri | 2,4 milyon manat |
| Uşaqlarda anadangəlmə ürək qüsurlarının aradan qaldırılması tədbirləri | 2,3 milyon manat |
| Uşaqlarda Kistoz Fibroz genetik xəstəliyi ilə mübarizə tədbirləri | 0,6 milyon manat |



Cəmi xərc:
**265,7 milyon manat**

# SOSİAL MÜDAFİƏ VƏ SOSİAL TƏMİNAT XƏRCLƏRİ

2024-cü ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərcləri üçün **4 milyard 542,2 milyon manat** vəsait proqnozlaşdırılıb. Bu, 2023-cü illə müqayisədə **226,3 milyon manat** və ya 14.9 faiz çoxdur. Sosial müdafiə və sosial təminat xərclərinin dövlət büdcəsi xərclərinin tərkibində payı 12,4 faiz, ÜDM-də payı isə 3,8 faiz təşkil edəcək.




- Dövlət Sosial Müdafiə Fonduna ayırmalar
- Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və digər sosial tədbirlərin maliyyə təminatı
- Məcburi köçkünlərin sosial müdafiəsinin təmin edilməsi
- Digər xərclər

Əhalinin gəlir əldə etmək imkanlarının və rifahının yaxşılaşdırılması, yoxsulluq səviyyəsinin azaldılması, aztəminatlı ailələrin, xüsusilə də sosial cəhətdən həssas təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi və digər sosial tədbirlərin maliyyə təminatı üçün 2024-cü ilin dövlət büdcəsində **2 milyard 630,7 milyon manat** vəsait nəzərdə tutulub. Bu da 2023-cü illə müqayisədə **649,6 milyon manat** və ya 32.8% çoxdur. Artıma səbəb 2023-cü ildə sosial müavinətlərin və təqaüdlərin miqdarı artımının 2024-cü ildə maliyyə təminatının yaradılması (357.3 milyon manat), həmçinin, sosial müavinət və təqaüd alanların sayının, ehtiyac meyarı həddinin artımı ilə bağlı xərclərin maliyyələşdirilməsi (230 milyon manat), bir çox sosial müavinət və təqaüdlərin Naxçıvan Muxtar Respublikasının büdcəsindən çıxarılaraq mərkəzləşdirilmiş xərclərdə (62,3 milyon manat) nəzərdə tutulmasıdır.









Sosial müdafiə və sosial təminat xərclərindən əhalinin həssas təbəqələrinə ödənilən yaşa, əlilliyə, sağlamlıq imkanları məhdud, ailə başçısını itirməyə və digər sosial müavinətlərin, habelə müharibə əlillərinə, ümumi səbəbdən əlilliyi olan şəxslərə, müharibə veteranlarına, şəhid ailələrinə ödənilən Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin maliyyələşdirilməsinə **1 milyard 738,5 milyon manat,** ünvanlı dövlət sosial yardımın verilməsinə **457,3 milyon manat,** "Azərbaycan Respublikası Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üçün Tədbirlər Planı"nın icrası olaraq işsiz şəxslərin məşğulluq imkanlarının artırılması məqsədilə haqqı ödənilən ictimai işləri ilə bağlı xərclər üçün **285,8 milyon manat** vəsait nəzərdə tutulub.

2024-cü il dövlət büdcəsində valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi ilə bağlı ilk dəfə işə düzələn zaman qanunvericilikdə müəyyən edilən normalara uyğun paltar, ayaqqabı, yumşaq ləvazimat və avadanlıqlarla, habelə Azərbaycan Respublikasında orta aylıq əməkhaqqının beş mislindən az olmayan miqdarda birdəfəlik müavinətlə təmin olunması üçün **2 milyon manat**, həmçinin, xaricdə yaşayan aztəminatlı azərbaycanlılara sosial yardımın göstərilməsi ilə bağlı, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi olan şəxslər üçün onların yaşadığı fərdi evlərin uyğunlaşdırılması ilə bağlı xərclərin maliyyələşməsi üçün **2,6 milyon manat** vəsait ayrılacaq.



Əhalinin gəlir əldə etmək imkanlarının və rifahının yaxşılaşması, yoxsulluq səviyyəsinin azaldılması, aztəminatlı ailələrin, xüsusilə də sosial cəhətdən həssas təbəqələrin sosial müdafiəsinin gücləndirilməsi və digər sosial tədbirlərin maliyyə təminatı üçün 2 milyard 630,7 milyon manat vəsait nəzərdə tutulub.

Keçmiş məcburi köçkünlərin sosial müdafiəsinin təmin edilməsi məqsədlə növbəti ilin dövlət büdcəsində **355,3 milyon manat** vəsait proqnozlaşdırılıb. Bu vəsaitin **317 milyon manatı** keçmiş məcburi köçkün statusu olan və onlara bərabər tutulan 467,1 min nəfərə 60 və 33 manat məbləğində vahid aylıq müavinətin verilməsi, **20,7 milyon manatı** onların istehlak etdikləri kommunal xidmətlərin haqqının dövlət büdcəsinin vəsaiti hesabına qarşılanması, **17,6 milyon manatı** isə digər tədbirlərin maliyyələşdirilməsi üçün nəzərdə tutulur.




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün 2024-cü ilin dövlət büdcəsindən **1 milyard 392 milyon manat** vəsaitin ayrılması nəzərdə tutulub. Bu, 2023-cü illə müqayisədə 75,8 milyon manat azdır.

Məişət zorakılığına, insan alverinin qurbanına çevrilənlər, erkən nikaha məruz qalmış şəxslər, sağlamlıq imkanları məhdud olan uşaqlar və onların ailə üzvləri ilə sosial, psixoloji və psixo-pedaqoji işin təşkili və bu qəbildən olan digər tədbirlərin maliyyə təminatı, həmçinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tabeliyində uşaq və ailələrə dəstək mərkəzlərinin saxlanılması, eləcə də bir sıra dövlət proqramlarının icrasının təmin edilməsi xərcləri üçün 2024-cü ilin dövlət büdcəsində **7,1 milyon manat** vəsait nəzərdə tutulub.

Uşaq və ailələrə dəstək mərkəzlərinin və uşaq evlərinin (Təhsil Nazirliyi, Bakı şəhəri üzrə 1, 2 və 3 nömrəli, Gəncə, Şəki və Lənkəran şəhər uşaq evləri) fəaliyyəti üçün 2024-cü ilin dövlət büdcəsində **6,3 milyon manat** vəsait proqnozlaşdırılıb.

2024-cü ildə Paralimpiya idman və Abilimpiya komandalarının təlim-məşq toplantılarının, həmçinin Xüsusi Olimpiya Komitəsinin idman komandalarının müxtəlif idman tədbirlərinin keçirilməsi və həmin idman komandalarının beynəlxalq yarışlarda iştirakı və beynəlxalq idman tədbirlərinə hazırlıq və digər təşkilatı işlərinin maliyyə təminatı üçün xərclər artırılaraq **2,9 milyon manata** çatdırılıb. Artımın əsas səbəbi növbəti ildə XVII Paris Yay Paralimpiya oyunlarında milli komandamızın iştirakı ilə bağlı xərclərin qarşılanması təşkil edir.

# Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi...

2024-cü ilin dövlət büdcəsində mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələrinin maliyyələşdirilməsinə **574,8 milyon manat** ayrılacaq. Bu, 2023-cü illə müqayisədə **23,9 milyon manat** və ya 4,3 faiz çoxdur. Bu sahəyə ayrılan vəsaitlərin dövlət büdcəsi xərclərinin tərkibində payı 1,6 faiz olacaq.

Bu sahə üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:

- Mədəniyyət və incəsənət sahəsində fəaliyyət (kitabxanalar, muzeylər, qoruqlar, mədəniyyət sarayları, evləri, mərkəzləri, teatrlar, musiqi kollektivlərinin saxlanılması) - **233 milyon manat;**
- Televiziya, radio və nəşriyyat xərcləri - **67,6 milyon manat;**
- Bədən tərbiyəsi və gənclər siyasəti tədbirlərinin maliyyələşdirilməsi - **71 milyon manat;**
- Yaradıcı ittifaqlar, cəmiyyətlər, siyasi partiyalar, diaspora və dini tədbirlərlə bağlı digər xərclər - **22,1 milyon manat;**
- Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər - **181,1 milyon manat**



“Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın tədbirlər planında mədəniyyət sahəsi üçün müəyyən edilmiş Mədəniyyət və Yaradıcı Sənayelərin dinamik inkişafının təmin edilməsi, mədəni və yaradıcı cəmiyyətin inkişafının təşviq edilməsi, ümumilikdə 2 fəaliyyət istiqaməti üzrə 7 tədbirin 2024-cü ildə həyata keçirilməsi ilə bağlı xərclər üçün **8,9 milyon manat** vəsait ayrılacaq.






Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən mədəniyyət mərkəzlərinin saxlanılması ilə bağlı xərclər üçün **9,4 milyon manat** vəsait nəzərdə tutulub.

Muzeylərin və mədəniyyət müəssisələrinin saxlanılması üçün **41,7 milyon manat** vəsait proqnozlaşdırılıb.





Kütləvi informasiya vasitələrinin, o cümlədən “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin, İctimai Televiziya və Radio Yayımları Şirkətinin, “Mir” Dövlətlərarası Teleradio Şirkəti Azərbaycan Milli Nümayəndəliyinin fəaliyyətinin təmin olunması məqsədilə **64,9 milyon manat** subsidiya nəzərdə tutulub.

“Azərbaycan Respublikasının Kino Agentliyi publik hüquqi şəxs üçün 10,5 milyon manat, o cümlədən Azərbaycan kinosunun davamlı inkişafının təmin edilməsi üzrə dövlət sifarişlərinin yerinə yetirilməsi ilə bağlı xərclər üçün 9,1 milyon manat vəsait ayrılacaq.”





“Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən fəaliyyət sahəsi üzrə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, tarixi və mədəni irsinin təbliği, teatr sahəsinin inkişaf etdirilməsi məqsədilə tədbirlərin maliyyələşdirilməsinə **10,1 milyon manat** vəsait proqnozlaşdırılıb.”

“Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının təmsil olunduğu siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsinə **5 milyon manat** yönəldiləcək.”





“Bədən tərbiyəsi və idmanın təşkilinə **40,1 milyon manat,** gənclər siyasəti xərcləri üzrə **18,4 milyon manat,** o cümlədən 74 olimpiya idman kompleksinin və digər idman obyektlərinin xərclərinin bir hissəsinin qarşılanması üçün **10,4 milyon manat,** 33-cü Yay Olimpiya Oyunlarına hazırlıq və iştirakla bağlı xərclər üçün **12,9 milyon manat,** “Gənclər evi” sosial xidmət müəssisəsinin saxlanılması üçün Gənclər və İdman Nazirliyinə **5,5 milyon manat** ayrılacaq.”

“

Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində tədbirlər, Azərbaycan xalqının tarixi və mədəni irsinin təbliği ilə bağlı tədbirlər, digər xalqların diasporları ilə əlaqələr və lobbi quruculuğu ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədilə Diasporla İş üzrə Dövlət Komitəsinə **6,6 milyon manat** nəzərdə tutulub.

”






“

İdman obyektlərində cari təmir, havalandırma, soyutma, isitmə, nəmalma və yanğın təhlükəsizliyi sistemləri üzrə avandanlıq alınması və quraşdırılması, habelə dam örtüyünün təmiri işlərinin başa çatdırılması üçün **11,1 milyon manat** vəsait nəzərdə tutulub.

”

“

2024-cü ilin dövlət büdcəsinin mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri **6,9 milyon manat** olacaq.

”






“

Azərbaycan Respublikasında fəaliyyət göstərən teatr-tamaşa müəssisələrinin maddi-texniki təminatının yaxşılaşdırılması və dövlət sifarişi ilə tamaşaların hazırlanması üçün **2,5 milyon manat** vəsait nəzərdə tutulub.

”

# Müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti...

Müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq mühafizə orqanlarının və prokurorluğun saxlanılmasına 2024-cü ilin dövlət büdcəsi xərclərinin 25,5 faizi həcmində və ya **9 milyard 377,7 milyon manat** məbləğində vəsait nəzərdə tutulub. Bu da 2023-cü ilin proqnozuna nisbətən **489,3 milyon manat** və ya 5,5 faiz çoxdur.

Bu sahələr uzrə xərclərin bölgüsü aşağıdakı kimidir:




Müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsi – **6 milyard 421 milyon manat;**

Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanlarının saxlanılması – **2 milyard 956,7 milyon manat**

Müdafiə və hüquq mühafizə orqanlarında şəxsi heyətin tam komplektləşdirilməsi, həmin orqanların maddi-texniki təminatının daha da yaxşılaşdırılması, işğaldan azad olunmuş ərazilərdə müdafiə, hüquq mühafizə orqanlarının müvafiq xidmətlərinin təşkili ilə bağlı tələb olunan vəsait 2024-cü ilin dövlət büdcəsində nəzərə alınıb.

Kirayəyə götürülmüş yaşayış sahəsinə görə yaşayış yeri olmayan hərbi qulluqçulara (ehtiyatda və istefada olan hərbi qulluqçular da nəzərə alınmaqla) ödənilən pul kompensasiyası üçün 2024-cü ilin dövlət büdcəsində **121,7 milyon manat,** 20 il və daha çox xidmət etmiş işləyən və ehtiyatda olan hərbi qulluqçulara mənzillə təmin olunması və digər zəruri xərclərin maliyyə təminatı üçün **35 milyon manat** məbləğində vəsait nəzərdə tutulub.

Müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq xərcləri bölmələrindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri **325,3 milyon manat** təşkil edəcək.



# Kənd təsərrüfatı xərcləri

2024-cü ilin dövlət büdcəsində kənd təsərrüfatı bölməsi üzrə **1 milyard 102,6 milyon manat** məbləğində vəsait nəzərdə tutulub. Bu, 2023-cü illə müqayisədə **644.5 milyon manat** və ya 53.6% faiz çoxdur.




Bu sahə üzrə nəzərdə tutulan vəsaitin **499,8 milyon manatı** Azərbaycan Respublikası ərazisində mövcud olan su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi, fermerlərin suvarma suyu ilə təchizatının və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması, kənd təsərrüfatının inkişafı ilə bağlı yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi, suvarma sahələrinin genişləndirilməsi, suvarma subartezian quyularının saxlanılması və digər meliorasiya tədbirlərinin maliyyə təminatına yönəldiləcəkdir.

Məqsədli olaraq kənd təsərrüfatı tədbirləri üçün **546,2 milyon manat,** baytarlıq tədbirləri üçün **48,5 milyon manat** məbləğində vəsait proqnozlaşdırılıb.

Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyi tədbirlərinə **502,9 milyon manat** vəsait ayrılacaq. Ərzaq təhlükəsizliyi tədbirləri üçün ayrılmış vəsait hesabına fermerlərə kənd təsərrüfatı istehsal vasitələrinin alınmasına sərf olunan xərclərin bir hissəsini kompensasiya etmək məqsədilə bitki becərilən sahənin hər hektarına görə verilən əkin, tədarükçülərə təhvil verilən bitkiçilik məhsulunun hər tonuna görə verilən məhsul, sertifikatlı 1-ci və 2-ci reproduksiyalı toxum və tinglərin satışına görə verilən toxum, yerli heyvanların cins tərkibinin yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması məqsədilə süni mayalanma yolu ilə alınan hər bir sağlam buzova görə verilən heyvan, Azərbaycan Respublikasında istehsal edilib tədarükçülərə təhvil verilən yaş baramanın hər kiloqramına görə verilən barama subsidiyalarının, habelə lizinqə verilən və lizinq yolu ilə satılan texnikalara, suvarma sistemləri dəstinə və damazlıq heyvanların alınması üçün kənd təsərrüfatı istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına verilən güzəştlərin, kənd təsərrüfatı sahəsində digər tədbirlərin maliyyələşdirilməsi nəzərdə tutulur.



“Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 iyul tarixli 1754 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyinin təmin edilməsi, idxal olunan buğdadan asılılığın azaldılması və yeni tənzimləmə mexanizmlərinin yaradılması hesabına Azərbaycan Respublikasının ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi sahəsində tədbirlərin həyata keçirilməsi məqsədilə **60 milyon manat** vəsait ayrılacaqdır.

Pilot layihə olaraq müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürmüş şəxslər tərəfindən istehsal olunan və Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdaya məhsul subsidiyasının tətbiqi, ərzaqlıq buğda əkilən sahələrdə qurulacaq suvarma sistemləri dəsti və avadanlıqlarına güzəştin tətbiqi  və digər dəstək tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur





2024-cü ilin dövlət büdcəsi layihəsində baytarlıq və kənd təsərrüfatı tədbirləri üzrə nəzərdə tutulmuş **66,1 milyon manat** vəsaitin **48,5 milyon manatı** baytarlıq tədbirlərinə **5,4 milyon manatı** bitki mühafizəsi sahəsində xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirlərinin aparılmasına və **7,8 milyon manatı** aqrokimyəvi pasportların verilməsi və toxum nəzarəti üzrə tədbirlərin maliyyələşdirilməsi üçün nəzərdə tutulub.

Əkin sahələrinin istifadəçilərinin torpaq sahələrinə mülkiyyət hüquqlarının rəsmiləşdirilməsi tədbirinə **0,6 milyon manat** vəsait ayrılacaq.

Növbəti ilin dövlət büdcəsinin kənd təsərrüfatı xərcləri bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri **8,1 milyon manat** təşkil edəcəkdir.

# ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ

2024-cü il dövlət büdcəsində ətraf mühitin və təbiətin mühafizəsi, bioloji zənginliyin qorunması, torpaq və yerquruluşu, hidrometeorologiya, meşə təsərrüfatı, balıqçılıq və ovçuluq, ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi, ətraf mühitin mühafizəsi üzrə tətbiqi tədqiqatlar və digər xidmətlər üzrə xərclər üçün **376,9 milyon manat** vəsait proqnozlaşdırılıb ki, bu da 2023-cü illə müqayisədə **5,5 milyon manat** və ya 1,5 faiz çoxdur.




Ətraf mühitin mühafizəsi xərcləri üçün ayrılan vəsaitin **315,4 milyon manatı** ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi tədbirləri, **18,6 milyon manatı** torpaq və yer quruluşu tədbirləri, **20 milyon manatı** meşə təsərrüfatı tədbirləri, **11,1 milyon manatı** hidrometeorologiya tədbirləri, **10,2 milyon manatı** bioloji zənginliyin qorunması tədbirləri, **1,6 milyon manatı** balıqçılıq və ovçuluq tədbirləri üçün nəzərdə tutulub.

"Ətraf mühitin mühafizəsi" xərcləri üzrə nəzərdə tutulmuş vəsaitdən şəhər, rayon və qəsəbələrdə prospekt, küçə, meydan, park, xiyaban və digər bu qəlibdən olan yerlərdə sanitar təmizlik, abadlaşdırma, təmir və yenidənqurma işlərinin həyata keçirilməsi üçün **259,4 milyon manat** ayrılacaq.

2024-cü ilin dövlət büdcəsindən "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinə **40 milyon manat** məbləğində subsidiyanın verilməsi proqnozlaşdırılır.

İqlim dəyişikliyi ümumilikdə dünyanın üzləşdiyi əsas qlobal problemdir. Azərbaycan iqlim dəyişikliklərinə qarşı qlobal mübarizəni daim dəstəkləyir, enerji səmərəliliyinin artırılması istiqamətində ardıcıl tədbirlər görür. Təmiz ətraf mühit və yaşıl inkişaf dövlətin milli prioritetlərindəndir və bunun nəticəsidir ki, son illər ölkədə bərpaolunan enerji geniş vüsət almaqdadır.

Eyni zamanda Azərbaycanın 2024-cü ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi iqlim dəyişikliklərinə qarşı mübarizə üzrə qlobal səylərə mühüm töhfə olacaqdır.



# MƏNZİL VƏ KOMMUNAL TƏSƏRRÜFATI XƏRCLƏRİ

2024-cü il dövlət büdcəsində mənzil və kommunal xərcləri üçün **367,1 milyon manat** məbləğində vəsait proqnozlaşdırılıb ki, bu da 2023-cü illə müqayisədə **19,0 milyon manat** və ya 5,4 faiz çoxdur.

Mənzil və kommunal xərcləri üzrə ayrılmış vəsaitdən **183,6 milyon manatı** kommunal təsərrüfatına, **61,5 milyon manatı** mənzil təsərrüfatına, **3,4 milyon manatı** su təsərrüfatına, **7,6 milyon manatı** lift təsərrüfatına, **111 milyon manatı** mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xərclərə yönəldiləcəkdir.




Dövlət büdcəsindən mənzil-kommunal təsərrüfatı texnikasının alınmasına **50 milyon manat** yönəldiləcək.

Mənzil və kommunal təsərrüfatı xərclərindən şəhər, rayon və qəsəbələrdə dövlət balansında olan yaşayış binalarının, o cümlədən dam örtüklərinin, fasadların və pilləkən qəfəslərinin əsaslı təmiri üçün **61,5 milyon manat,** lift təsərrüfatının saxlanılması üçün **7,6 milyon manat,** işıqlandırılma üçün **35,6 milyon manat,** yaşıllıqların salınması, saxlanılması və landşaft quruluşu işləri üçün **55,8 milyon manat,** mənzil və kommunal təsərrüfatı müəssisələri üçün **48,2 milyon manat** vəsait nəzərdə tutulub.

Göstərilən xidmətlərə görə satış tarifinin məhsulun maya dəyərindən aşağı olması nəticəsində yaranmış zərərin örtülməsi üçün "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinə **46,5 milyon manat** vəsait nəzərdə tutulub.



# İQTİSADİ FƏALİYYƏT

2024-cü il dövlət büdcəsində iqtisadi fəaliyyətlə bağlı xərclər üçün **7 milyard 788 milyon manat** vəsait nəzərdə tutulub. Həmin xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 21.2 faiz təşkil edəcək.
Bu sahə üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:

- Nəqliyyat və rabitə - **528,1 milyon manat**
- İqtisadi və kommersiya fəaliyyəti – **54,4 milyon manat**
- Tikinti və şəhərsalma – **6,3 milyard manat**
- Geodeziya və faydalı qazıntılar – **9,1 milyon manat**
- Yanacaq və enerji kompleksi – **6,2 milyon manat**
- İqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar – **144 min manat**
- İqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər – **880,6 milyon manat**










Tikinti və şəhərsalma xərclərinin **2 milyard 483 milyon manatı** dövlət əsaslı vəsait qoyuluşuna, **3 milyard 825 milyon manatı** işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasına yönəldiləcək.

Nəqliyyat və rabitə xərcləri üçün 2024-cü il dövlət büdcəsindən **528,1 milyon manat** vəsait proqnozlaşdırılıb. Azərbaycan Respublikasının yeni “Azərsky-2” peykinin orbitə çıxarılması ilə əlaqədar olaraq tələb olunan maliyyə təminatı üçün **50 milyon manat** vəsait nəzərdə tutulub.

Sərnişindaşıma xidməti tarifinin maya dəyərindən aşağı olması nəticəsində yaranmış zərərin örtülməsi üçün “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinə **50 milyon manat** həcmində subsidiya ayrılacaq.

Naxçıvan Muxtar Respublikasına edilən aviareyslərə, Böyük Vətən müharibəsi əlillərinin və iştirakçılarının, habelə onlara bərabər tutulan şəxslərin Müstəqil Dövlətlər Birliyi ölkələrinə nəqliyyatda gedişlə bağlı tətbiq edilən güzəştlər hesabına yaranan zərərin örtülməsi üçün “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinə **5 milyon manat** ödəniləcək.

İpoteka və Kredit Zəmanət Fonduna cəm olaraq **100,0 milyon manat,** o cümlədən Azərbaycan Respublikası əhalisinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi ilə bağlı **87,7 milyon manat** və sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi üçün **12,3 milyon manat** məbləğində vəsait proqnozlaşdırılıb.

Startapların inkişafı üçün zəruri informasiya kommunikasiya texnologiyaları infrastrukturunun gücləndirilməsi və istedad ehtiyatlarının yaradılması, dövlət xidmətlərinin özəl sektorla mümkün inteqrasiya olunmuş şəkildə göstərilməsi üçün rəqəmsal platformanın, “Abşeron vadisi” innovasiya klasterinin yaradılması, ictimai nəqliyyatda islahatların aparılması və digər xərclər üçün **221,4 milyon manat** vəsait nəzərdə tutulub.

2024-cü ilin dövlət büdcəsindən iqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı üçün 100 milyon manat, dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması ilə bağlı xərclər üçün **26,3 milyon manat,** qeyri-neft məhsullarının ixracının təşviqi, stimullaşdırılması və bu qəbildən olan digər tədbirlərin maliyyə təminatı üçün **15,1 milyon manat** məbləğində vəsait nəzərdə tutulub.

Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı kompensasiya ödənişlərinin həyata keçirilməsi üçün **1,7 milyon manat** subsidiya ayrılacaq.

Dövlət büdcəsində yeni nəsil şəxsiyyət vəsiqələrinin hazırlanması üçün **42 milyon manat,** Azərbaycanın xarici ölkələrdə fəaliyyət göstərən ticarət nümayəndəliklərinin saxlanılması xərcləri üçün **8 milyon manat** məbləğində vəsait proqnozlaşdırılıb.

Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun fəaliyyət xərcləri üçün 1**0,3 milyon,** Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payı üçün **30,6 milyon manat** nəzərdə tutulub.



Dövlət orqanları üçün lisenziyalaşdırılmış proqram təminatının alınması, "Hökumət buludu"nun (G-cloud) yaradılması və bu sistemə qoşulmuş qurumlar üzrə müvafiq xidmət xərclərinin örtülməsi və digər zəruri xərclərin maliyyələşdirilməsi üçün **20 milyon manat** məbləğində vəsait ayrılacaqdır.

Ölkədə turizm imkanlarının genişləndirilməsi, regionlarda turizm fəaliyyətinin stimullaşdırılması üçün Dövlət Turizm Agentliyinə dövlət büdcəsindən cəm olaraq **54,4 milyon manat,** o cümlədən "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin xərclərinin bir hissəsinin örtülməsi üçün **12,1 milyon manat** vəsait nəzərdə tutulub.

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"-nın tədbirlər planında turizm sahəsi üçün müəyyən edilmiş turizm sektorunun davamlı inkişafını təmin etmək üçün strateji, institusional və maliyyələşmə mexanizmlərinin gücləndirilməsi fəaliyyət istiqaməti üzrə davam edən 2 tədbirin 2024-cü ildə həyata keçirilməsi ilə bağlı xərclər üçün **25,6 milyon manat** proqnozlaşdırılıb.

2024-cü ilin dövlət büdcəsinin iqtisadi fəaliyyətlə bağlı xərcləri bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri **0,5 milyon manat** təşkil edəcək.

# ƏSAS BÖLMƏLƏRƏ AİD EDİLMƏYƏN XƏRCLƏR

2024-cü il dövlət büdcəsinin əsas bölmələrə aid edilməyən xərclər üzrə **1 milyard 390,3 milyon** manat vəsait nəzərdə tutulub. Bu, 2023-cü illə müqayisədə **234,9 milyon manat** və ya 20,3 faiz çoxdur.

Bu sahə üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:




- Ehtiyat fondları – **410 milyon manat**
- Məqsədli büdcə fondları – **523,9 milyon manat**
- Valyuta konvertasiyası – **4 milyon manat**
- Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət – **452,4 milyon manat**




Əvvəlcədən dövlət büdcəsində nəzərdə tutulmayan bir sıra zəruri xərclərin maliyyələşdirilməsi məqsədilə 2024-cü il dövlət büdcəsində Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu üçün **300 milyon manat,** dövlət büdcəsinin ehtiyat fondu üçün **110 milyon manat,** cəm olaraq **410 milyon manat** məbləğində vəsait nəzərdə tutulub.

Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığorta xərcləri üçün növbəti ilin dövlət büdcəsində **27,3 milyon manat** məbləğində vəsait nəzərdə tutulub.



2024-cü ilin dövlət büdcəsindən dövlət ehtiyatlarının yaradılmasına **45 milyon manat,** fövqəladə halların nəticələrinin aradan qaldırılmasına **20 milyon manat** yönəldiləcək.

Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi üçün **81 milyon manat** vəsait nəzərdə tutulub.

Yaşayış məntəqələri ilə bağlı zəruri tədbirlərin maliyyələşdirilməsi üçün **50 milyon manat,** xüsusi müdafiə olunan sənədlərin (aksiz markalarının) çap edilməsi üçün **15 milyon manat,** işğaldan azad olunmuş ərazilərdə ödənilmiş kommunal xidmətlərə və məcburi dövlət sosial sığorta haqlarına görə 10 il müddətinə dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımının göstərilməsi üçün **34,7 milyon manat,** valyuta konvertasiyası üzrə xərclər üçün **4,0 milyon manat,** Azərbaycan Respublikasının maraqlarının beynəlxalq hüquq çərçivəsində qorunması, beynəlxalq məhkəmələrdə təmsil edilməsi və həmin məhkəmələrin qərarlarının icrası ilə bağlı xərclər üçün **39,0 milyon manat,** "Dövlət təltiflərinin hazırlanması" ilə bağlı xərclərin maliyyə təminatı üçün **3,2 milyon manat** vəsait 2024-cü ilin dövlət büdcəsində nəzərdə tutulub.

2024-cü ilin dövlət büdcəsinin əsas bölmələrə aid edilməyən xərclər bölməsində büdcə təşkilatlarının büdcədənkənar xərcləri üçün **80 milyon manat** məbləğində vəsait proqnozlaşdırılıb.

Yerli özünüidarəetmə orqanlarına cəmi **12,5 milyon manat,** o cümlədən onların gəlir və xərclərini tənzimləmək məqsədilə **6,5 milyon manat** dotasiya, məqsədli xərclər üçün **1,6 milyon manat** subvensiya və su təchizatı qurğularının istismarı və onlara xidmətlə bağlı xərclər üçün **4,4 milyon manat** subsidiya nəzərdə tutulub.







# ƏSASLI XƏRCLƏRİN İSTİQAMƏTLƏRİ

2024-cü il dövlət büdcəsində əsaslı xərclərin maliyyələşdirilməsinə **12 milyard 80,2 milyon manat** xərclənəcək. Bu, dövlət büdcəsi xərclərinin 32,8 faizini təşkil edir. İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və s.) məqsədilə 2024-cü ilin dövlət büdcəsində **4 milyard milyon manat** vəsait nəzərdə tutulub.






**Murovdağ tuneli,**
2023-cü il

Ölkənin müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması məqsədilə dövlət büdcəsinin əsaslı xərclərindən xüsusi müdafiə təyinatlı layihələr və tədbirlərin maliyyələşdirilməsi üçün **3 milyard manat** vəsait proqnozlaşdırılır.

2024-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya) **2 milyard 482,9 milyon manat** məbləğində olacaq. Həmin vəsaitin **890,4 milyon manatı** sosial və infrastruktur təyinatlı layihələrin (sosial-mədəni və məişət, inzibati, istehsalat təyinatlı layihələrin, bina və qurğuların, yolların, meliorasiya və su təsərrüfatı obyektlərinin, içməli su təminatı və kanalizasiya sistemlərinin tikintisinə, yenidən qurulmasına, əsaslı təmirinə, qeyri-maliyyə aktivlərinin, o cümlədən əsas vəsaitlərin, tikililərin, yaşayış və qeyri-yaşayış binalarının və s. alınmasına), **1 milyard 100 milyon manatı** “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın layihələrinin maliyyələşdirilməsinə, **249,1 milyon manatı** “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrasına və **243,4 milyon manatı** beynəlxalq kreditor qurumlarının təqdim etdiyi kreditlər hesabına həyata keçirilən sosial və infrastruktur təyinatlı layihələrin maliyyələşdirilməsinə yönəldiləcək.



2024-cü ilin dövlət büdcəsinin əsaslı xərclərindən tikinti, bərpa, yenidənqurma, əsaslı təmir və müxtəlif əsaslı alışların həyata keçirilməsi üçün **1 milyard 771,6 milyon manat** məbləğində vəsait ayrılacaqdır. Həmin vəsait (müdafiə, hüquq mühafizə orqanları və büdcə təşkilatlarının büdcədənkənar vəsaitləri də nəzərə almaqla) digər büdcə və büdcədən maliyyə yardımı alan təşkilatlar tərəfindən həyata keçiriləcək tikinti, bərpa, yenidənqurma, əsaslı təmir işlərinə, həmçinin müxtəlif əsaslı alışların həyata keçirilməsinə sərf ediləcək.

# BÜDCƏDƏKİ MƏQSƏDLİ FONDLARIMIZ

2024-cü ildə dövlət büdcəsində Ətraf mühitin mühafizəsi üzrə dövlət fondunun gəlirləri və xərcləri bərabər olmaqla **7,3 milyon manat** məbləğində proqnozlaşdırılıb. Həmin vəsait əsasən təbiətdən istifadəyə görə ödəmələr, ətraf mühitin mühafizəsi haqqında (balıqçılıq istisna olmaqla) qanunvericiliyin pozulmasına görə alınan cərimələr, müsadirə olunan ovçuluq alətlərinin satışından daxilolmalar hesabına formalaşacaq.

Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondunun gəlirləri və xərcləri bərabər olmaqla **8,9 milyon manat** məbləğində proqnozlaşdırılıb. Həmin vəsait müqavilə ilə istifadəyə verilmiş meşə ehtiyatlarına görə və sair daxilolmalar hesabına formalaşacaq.

Mineral xammal bazasının bərpası üzrə dövlət fondunun gəlirləri və xərcləri bərabər olmaqla **1,3 milyon manat** məbləğində vəsait proqnozlaşdırılıb. Həmin vəsait mineral-xammal bazasının bərpasına yönəldilmiş ayırmalar, yerin təkinin istifadəyə verilməsinə dair müsabiqə və hərracların keçirilməsindən əldə edilən gəlirlər və digər daxilolmalar hesabına formalaşacaq.

Su bioresurslarının artırılması bərpası və mühafizəsi fondunun gəlirləri və xərcləri bərabər olmaqla **0,3 milyon manat** məbləğində vəsait proqnozlaşdırılıb. Bu vəsait əsasən balıqçılıq haqqında qanunvericiliyin pozulmasına görə alınan cərimələr və kompensasiyalar, balıq və digər su bioresurslarından istifadəyə görə ödəmələr hesabına formalaşacaq.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondlarının gəlirləri və xərcləri bərabər olmaqla **1,2 milyon manat** məbləğində vəsait proqnozlaşdırılıb. Həmin vəsait xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulmasına görə alınan cərimələr, təbiətdən istifadəyə görə ödəmələr, bu sahədə müsadirə olunmuş məhsulların satışından daxilolmalar hesabına formalaşacaq.

"Avtomobil Yolları" Məqsədli Büdcə Fondu üçün **330 milyon manat** (işğaldan azad olunmuş ərazilərdə yol infrastrukturunun qurulmasına və bərpasına "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun 175 milyon manat vəsaiti nəzərə alınmadan) vəsait nəzərdə tutulub.



# DÖVLƏT BORCU

2023-cü il 1 oktyabr tarixi vəziyyətinə Azərbaycan Respublikasının ümumi dövlət borcunun həcmi **17 milyard 187,7 milyon manata** bərabər olub. Bu, 2023-cü il üzrə proqnozlaşdırılan ÜDM-in 14,4 faizi qədərdir. Məcmu dövlət borcunun **11 milyard 93,9 milyon manatı** (6,5 milyard ABŞ dolları) xarici, **6 milyard 93,8 milyon manatı** daxili dövlət borcunun payına düşür.




*Ümumi dövlət borcunun həcmi 17 milyard 187,7 milyon manata bərabər olub.*

Ölkədə həyata keçirilən iqtisadi islahatların dəstəklənməsi və ayrı-ayrı prioritet layihələrin maliyyələşdirilməsi məqsədilə beynəlxalq maliyyə-bank qurumları və digər kredit təşkilatları ilə imzalanmış müqavilələr əsasında altı ay ərzində istifadə olunmuş kreditlər və həyata keçirilmiş əsas borc ödənişləri nəzərə alınmaqla, 2023-cü il 1 avqust tarixinə xarici dövlət borcu **6 milyard 525,8 milyon** ABŞ dolları olub ki, bu da ÜDM-in 9.3 faizinə bərabərdir. 2023-cü ilin ilk yarısında xarici dövlət borcunun 1,7 faiz azaldılmasına nail olunub.




**Xarici dövlət borc portfelinin 57,4 faizini sabit, 42,6 faizini isə dəyişkən faiz dərəcəsi ilə olan borclar təşkil edib.**




**İmzalanmış müqavilələrə uyğun olaraq xarici dövlət borcunun 45,8 faizi 5 ilə qədər olan müddətdə, 44,9 faizi 5 ildən 10 ilə qədər olan müddətdə, 9,3 faizi isə 10 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır.**

Xarici dövlət borcunun 88.2 faizi ABŞ dollarında, 5,2 faizi avroda, 3,3 faizi XBH-da (Beynəlxalq Valyuta Fondunun Xüsusi Borcalma Hüquqları), 2,7 faizi yapon yenində, 0,6 faizi isə digər valyutalarda cəlb olunub.

2023-cü il 1 oktyabr tarixinə daxili dövlət borcu **6 milyard 93,8 milyon manat** və ya ÜDM-in 5,1 faizini təşkil edib.

Daxili dövlət borcunu daxili maliyyə bazarında yerləşdirilmiş dövlət qiymətli kağızları üzrə qalıq borc təşkil edib. Hesabat tarixinə daxili dövlət borcunun 25,4 faizi 1 illik, 57,9 faizi 2 və 3 illik, 16,6 faizi isə 5 il və daha artıq müddətli dövlət qiymətli kağızlarının payına düşür.






## Dövlət borclarına xidmətə nə qədər vəsait ayrılıb?

2023-cü ilin 9 ayı ərzində vaxtı çatmış öhdəliklərin təmin edilməsi məqsədilə **1 milyard 703.5 milyon manat** məbləğində vəsait xərclənib. Bu vəsaitin **1 milyard 24,4 milyon manatı** xarici, **679,1 milyon manatı** daxili dövlət borcuna xidmət xərclərinin payına düşür.




Bu vəsaitin **713,6 milyon manatı** dövlət büdcəsi xərcləri hesabına, **989,9 milyon manatı** daxili maliyyə bazarında emissiya olunan dövlət istiqrazlarından əldə edilmiş vəsait hesabına təmin olunub.

2024-cü il dövlət büdcəsində dövlət borclarına xidmətlə bağlı xərclər **1 milyard 972,6 milyon manat** məbləğində proqnozlaşdırılır. Həmin xərclərin **1 milyard 472,6 milyon manatını** xarici dövlət borcu üzrə xərclər, o cümlədən, **850,9 milyon manatını** əsas borc ödənişləri, **621,7 milyon manatını** faiz xərcləri təşkil edir.

2024-cü ilin dövlət büdcəsində daxili dövlət borcuna xidmət üçün daxili maliyyə bazarında yerləşdirilmiş dövlət istiqrazları üzrə **500 milyon manat** məbləğində faiz xərcləri proqnozlaşdırılır.

Azərbaycan Respublikasının 2024-cü il üzrə xarici dövlət borclanmasının yuxarı həddi **1,7 milyard manat,** daxili dövlət borclanmasının yuxarı həddi **2,3 milyard manat** və il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi **700 milyon manat** nəzərdə tutulub.

2023-cü ilin 1 oktyabr tarixinə "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu"nun qalığı **760,6 milyon manat** təşkil edib.

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ XARİCİ YARDIMLARLA BAĞLI XƏRCLƏR

2024-cü ilin dövlət büdcəsində beynəlxalq münasibətlər və xarici yardımlarla bağlı xərclər **525,5 milyon manat** məbləğində planlaşdırılıb.

Xərc istiqamətləri aşağıdakı kimi qruplaşdırılıb.:

- Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqlarının saxlanılması xərcləri - **198 milyon manat**
- Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı və maliyyə institutlarının (maliyyə-kredit təşkilatlarının) səhm kapitalında iştirak ilə bağlı xərclər - **32 milyon manat**
- Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlərlə bağlı xərclər - **4,5 milyon manat**
- Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlərlə bağlı xərclər - **200 milyon manat**
- Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər - **11 milyon manat**
- Xarici yardımlar üzrə xərclər - **80 milyon manat.**



# DÖVLƏT BÜDCƏSİNİN YERLİ GƏLİR VƏ XƏRCLƏRİ

2024-cü il dövlət büdcəsi gəlirlərinin tərkib hissəsi olan yerli gəlirlər **775,4 milyon manat,** yerli xərclər **784,8 milyon manat** məbləğində proqnozlaşdırır.
Yerli xərclər aşağıdakı istiqamətə yönəldiləcək:

- Ətraf mühitin mühafizəsi xərcləri (sanitar təmizlik və abadlaşdırılma xidmətləri haqqının ödənilməsi və s.) - **259,4 milyon manat;**
- İcra hakimiyyəti orqanlarının saxlanılması xərcləri - **223 milyon manat;**
- Mənzil və kommunal təsərrüfatı xərcləri - **208,7 milyon manat;**
- Nəqliyyat və rabitə xərcləri (yolların əsaslı təmiri xərcləri) - **52,4 milyon manat;**
- Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri - **6 milyon manat;**
- Digər xərclər – **35,3 milyon manat.**




İqtisadi təsnifata uyğun olaraq bölgü belə olacaq:

- Əməyin ödənişi xərcləri - **208,4 milyon manat;**
- İş və xidmətlərin alınması xərcləri - **396,8 milyon manat;**
- Malların satınalınması ilə bağlı xərclər - **7 milyon manat,**
- Qeyri-maliyyə aktivlərinə aid olan xərclər - **114,7 milyon manat;**
- Subsidiyalar - **55,5 milyon manat;**
- Sosial ödənişlər - **2,4 milyon manat**




2024-cü ildə Azərbaycan Respublikasının şəhər və rayonlarından 58-i xərclərini dövlət büdcəsindən maliyyə yardımı almadan öz gəlirləri hesabına təmin edəcəklər. Yerdə qalan 7 rayona yerli gəlir və xərcləri tənzimləmək üçün dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən **9,4 milyon manat** maliyyə yardımının ayrılması nəzərdə tutulur. Bu, əvvəlki illə müqayisədə 23,2 faiz azdır.

# DÖVLƏT BUDCƏSİ KƏSİRİNİN YUXARI HƏDDİ VƏ ONUN MALİYYƏLƏŞDİRİLMƏSİ

2024-cü il üçün dövlət büdcəsi kəsirinin yuxarı həddi **2 milyard 590 milyon manat** məbləğində nəzərdə tutulur. Dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbəti 2,2 faiz təşkil edəcək. Kəsirin maliyyələşdirilməsi özəlləşdirmədən daxilolmalar, daxili və xarici borclanma, 2024-cü il 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının və Məqsədli Büdcə Fondlarının vəsaitinin qalığı hesabına həyata keçiriləcək.



# Mündəricat

HƏR BİRİMİZİN BÜDCƏSİ.....2
ÖLKƏMİZİN BÜDCƏ SİSTEMİ.....3
BÜDCƏ NECƏ VƏ NƏ VAXT TƏRTİB OLUNUR?.....4
DÖVLƏT BÜDCƏSİNİN STRUKTURU.....5
Büdcənin gəlirləri necə formalaşır?.....6
Büdcə gəlirlərinin formalaşma mənbələri.....6
BÜDCƏ XƏRCLƏRİ.....7
Funksional bölgü.....7
İqtisadi bölgü.....8
İnzibati bölgü.....9
Büdcənin gəlir və xərcləri arasındakı fərq.....10
YOLA SALDIĞIMIZ İLƏ QISA BAXIŞ.....11
İcmal büdcənin kəsiri.....12
2024-CÜ İLİN MAKROİQTİSADİ PROQNOZLARI NƏ VƏD EDİR?.....13
Dövlət büdcəsi üçün çağırışlar.....15
2024-CÜ İLİN İCMAL BÜDCƏSİ.....16
2024-cü il üzrə büdcə-vergi siyasətinin əsas istiqamətləri.....18
2024-CÜ İLDƏ BÜDCƏ BİZƏ NƏ VERƏCƏK?.....19
DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİ.....21
Büdcə gəlirlərinin strukturu.....21
DÖVLƏT BÜDCƏSİNİN XƏRCLƏRİ.....26
Büdcə xərclərinin funksiyalar üzrə əsas istiqamətləri.....28
Təhsil.....29
Təhsil xərclərinin tərkibində tədbir və proqramların maliyyələşməsi.....30
Elm xərcləri.....33
Səhiyyə xərcləri.....34
Sosial müdafiə və sosial təminat xərcləri.....37
Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi.....40
Müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti.....44
Kənd təsərrüfatı, mənzil və kommunal təsərrüfatı.....45
Ətraf mühitin mühafizəsi.....47
Mənzil və kommunal təsərrüfatı xərcləri.....48
İqtisadi fəaliyyət.....49
Əsas bölmələrə aid edilməyən xərclər.....51
ƏSASLI XƏRCLƏRİN İSTİQAMƏTLƏRİ.....53
BÜDCƏDƏKİ MƏQSƏDLİ FONDLARIMIZ.....55
DÖVLƏT BORCU.....56
Beynəlxalq münasibətlər, beynəlxalq təşkilatlara üzvlük haqlari və digər xərclər.....58
Dövlət büdcəsinin yerli gəlir və xərcləri.....59
Dövlət büdcəsi kəsirinin yuxarı həddi və onun maliyyələşdirilməsi.....60

**Azərbaycan Respublikası Maliyyə Nazirliyi**
AZ1022, Bakı şəhəri, Səməd Vurğun küç., 135
Tel: +994 12 404 46 99; Faks.: +994 12 404 47 20
www.maliyye.gov.az
e-mail: office@maliyye.gov.az